**Demokratiya, güclü iqtisadiyyat - Dağlıq Qarabağın açarıdır!**

DEMOKRATİK, MÜSTƏQİL QƏZET

# BAKI XƏBƏR

www.baki-xeber.com

6
FEVRAL
2020-ci il

№ 21 (4152)

Qiymәti
40 qәpik

Hәftәdә
5 dәfә çıxır

Qәzet
2003-cü ildәn
nәşr olunur

# CENEVRƏDƏN SONRA YENİ VƏZİYYƏT - QONDARMA «DQR»DƏ 29 MART «PREZİDENT VƏ PARLAMENT SEÇKİLƏRİNİ» DAYANDIRMAQ ÜSULU...

■ səh. 7 ■

Dağlıq Qarabağın azərbaycanlı icması ilə bağlı durum Ermənistan üçün yeni şok effekti yaradır

■ səh. 9 ■

9 fevral seçkilərini müşahidə etmək üçün daha bir beynəlxalq təşkilat qərar verdi - seçkiyə beynəlxalq maraq artır...

■ səh. 5 ■

Qarabağ probleminin həll olunmaması Ermənistanda yeni klanlararası savaşın və sabitsizliyin mənbəyi kimi...

■ səh. 6 ■

Paşinyanşünas təbliğatın yeni "faktı" - Ermənistan "turizmə görə Azərbaycanı, Gürcüstanı, hətta Türkiyəni" üstələyirmiş...

■ səh. 8 ■

Palçıq vulkanlarımız muzey kimi, ancaq ətrafları bərbad - Prezident prosesi hansı ünvana yönəltdi...

■ səh. 11 ■

Bakının şəhər nəqliyyat vasitələrinin ağır durumu - Hətta Sumqayıt səviyyəsində də deyilmiş...

■ səh. 15 ■

Bakı apteklərində spirt və tibbi maskalara tələbat ödənmir - depolar əsas "müqəssir" rolunda...

■ səh. 11 ■



■ səh. 4 ■

## Azərbaycanda kölgə iqtisadiyyatının səviyyəsinə Prezidentin reaksiyası - «dəhşətlə» barışmaz mübarizə başladı...



**Prezident Əliyevin Azərbaycanda 2003-cü ildən başlayan inkişafı əks etdirən rəqəmləri və Ermənistanın siyasi-hakim dairələrini narahat edən motiv...**

■ səh. 3 ■

Məmurlar kasıb təbəqə üçün nəzərdə tutulmuş iş yerlərinin pulunu necə mənimsəyir...

■ səh. 10 ■




**Naxçıvan iddialarının xülya olduğunu Ermənistanda kütləvi anlamağa başlayırlar - konkret fakt...**

■ səh. 8 ■

■ səh. 5 ■

Deputatlığa namizəd akademik Əhliman Əmiraslanov Kürdəmirin daha üç kəndində seçki rəqiblərini tam üstələdi



■ səh. 7 ■

Ermənilərin "köçkünlərə mənzil-mənzil oyunu" - Paşinyan "boş ciblə" 2008-ci ildən dayanmış prosesi necə bərpa edib?!...



■ səh. 4 ■

Elman Rüstəmov "oxu atıb, yayın gizlətdi" - əmanətlərin yeni sığortalanması necə olacaq...



■ səh. 12 ■

Bakı Tekstil Fabrikinin ittihamı - 4 model oğurlayıbsınız - Bakı Tikiş Evinin sərt reaksiyası...



■ səh. 13 ■

Azərbaycan Dövlət Pedaqoji Universitetinin rektorları...



## Prezident İlham Əliyev Qırğızıstanın Xarici İşlər nazirini qəbul edib

**Prezident İlham Əliyev** fevralın 5-də Qırğız Respublikasının Xarici İşlər naziri Çingiz Aydarbekovun başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

## MSK parlament seçkiləri ilə bağlı Qarabağda yaşayan erməni əsilli Azərbaycan vətəndaşlarına müraciət etdi

**Mərkəzi Seçki Komissiyası (MSK) parlament seçkiləri ilə bağlı Dağlıq Qarabağda yaşayan erməni əsilli Azərbaycan vətəndaşlarına müraciət edib.**



"Trend"-in məlumatına görə, müraciətdə bildirilir: "Azərbaycan Respublikasının Dağlıq Qarabağ bölgəsi və ətraf yeddi rayonu işğal edən Ermənistanın apardığı etnik təmizləmə siyasəti nəticəsində bir milyondan artıq azərbaycanlı qaçqın və məcburi köçkünə çevrilmişdir. Ermənistanın işğalı nəticəsində Azərbaycan Respublikasının vətəndaşları olan Dağlıq Qarabağ bölgəsinin erməni icması digər konstitusion hüquqları ilə yanaşı, seçki hüquqlarından da məhrum olmuşdur. Ermənistan bu ərazilərdə dəfələrlə saxta seçki şousu yaratmağa cəhd göstərmişdir. Azərbaycan ərazilərində seçkilərin keçirilməsinin əsasını Azərbaycan Konstitusiyası və Seçki Məcəlləsi təşkil etdiyi üçün bu "seçkilər" qeyri-legitimdir və beynəlxalq ictimaiyyət tərəfindən tanınmır. Ermənistanın hərbi təcavüzü nəticəsində ölkə ərazisindəki 125 seçki dairəsindən 7-nin ərazisi tamamilə, 3 seçki dairəsi ərazisinin isə bir hissəsi işğal altındadır. Bununla yanaşı, digər 4 seçki dairəsi ərazisində də məcburi köçkün məntəqələri mövcuddur. Doğma torpaqlarından zorla didərgin salınmış məcburi köçkün vətəndaşlarımızın Azərbaycan Respublikasının Milli Məclisinə 2020-ci il fevralın 9-na təyin edilmiş seçkilərdə öz konstitusion hüquqlarından istifadə edə bilmələri üçün 523 seçki məntəqəsi yaradılıb və respublika ərazisində fəaliyyət göstərən digər seçki məntəqələri kimi bu məntəqələr də seçki gününə tam hazır vəziyyətə gətirilib.

Məcburi köçkün vətəndaşlarımızın respublikanın bütün regionlarına səpələnməsi onların səsverməsinin təşkilini nə qədər çətinləşdirsə də, böyük zəhmət və gərgin iş sayəsində bu qəbildən olan vətəndaşlarımızın da səsvermə hüquqlarının tam təmin edilməsi üçün geniş şərait və hərtərəfli imkan yaradılıb. İndiyə qədər ölkəmizdə keçirilən seçki və referendumlarda Ermənistanın təcavüzü nəticəsində öz doğma yurdlarından didərgin salınan Azərbaycan vətəndaşlarının seçki hüquqlarının təmin olunduğunu və milli mənsubiyyətinə görə vətəndaşlar arasında heç bir fərq qoyulmadığını diqqətə çatdıraraq, Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası bəyan edir ki, Azərbaycanın Dağlıq Qarabağ bölgəsinin erməni əsilli Azərbaycan vətəndaşları da digər vətəndaşlarımız kimi bu seçkilərdə öz səsvermə hüquqlarından azad və sərbəst şəkildə istifadə edə bilər və bunun üçün Azərbaycan Respublikası qanunvericiliyinin tələblərinə uyğun olaraq bütün addımları atılmasına hazırdır".

## BŞBPİ deputatlığa namizəd Bəxtiyar Hacıyevin təbliğat plakatının məqsədli qoparılması iddialarını araşdırdı



**"Növbədənkənar parlament seçkilərində namizəd Bəxtiyar Hacıyevin təbliğat-təşviqat lövhələrindən plakatlarının məqsədli olaraq qoparılması ilə bağlı iddiaları tərəfimizdən tam və hərtərəfli araşdırılıb".**

Bu barədə "Trend"ə Bakı Şəhər Baş Polis İdarəsinin (BŞBPİ) Mətbuat Xidmətinin rəisi, polis mayoru Elşad Hacıyev bildirib.

Onun sözlərinə görə, müraciətlə əlaqədar "Təhlükəsiz şəhər" kameralarının arxiv görüntülərinə baxış keçirilib: "Baxış zamanı seçki lövhələrindən plakatların qoparılmasında şəxsi müdaxilə faktı aşkarlanmayıb, plakatın küləyin təsirindən qopması müəyyən olunub. Təbliğat və təşviqat prosesində polis üzərinə düşən vəzifələrin icrasını yüksək peşəkarlıqla davam etdirir, daxil olan bütün müraciətlərə diqqətlə yanaşır".

# Prezident Balakəndə avtomobil yolunun tikintisinə 17,6 milyon manat ayırdı



**Prezident İlham Əliyev Balakən rayonunun Yevlax-Zaqatala-Gürcüstanla dövlət sərhədi (155 km)-Qullar-Tülü-Talalar-Şərif-Acılıqbinə-Qaysa avtomobil yolunun tikintisi ilə bağlı tədbirlər haqqında sərəncam imzalayıb.**

Sərəncamda qeyd edilir ki, otuz min nəfər əhalinin yaşadığı 7 yaşayış məntəqəsini birləşdirən Yevlax-Zaqatala-Gürcüstanla dövlət sərhədi (155 km)-Qullar-Tülü-Talalar-Şərif-Acılıqbinə-Qaysa avtomobil yolunun tikintisi məqsədilə Azərbaycan Respublikasının 2020-ci il dövlət büdcəsinin dövlət əsaslı vəsait qoyuluşunun (investisiya xərclərinin) bölgüsündə avtomobil yollarının tikintisi və yenidən qurulması üçün nəzərdə tutulmuş vəsaitin 17,6 milyon manatı Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə ayrılsın. Maliyyə Nazirliyi bu sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin edəcək. Nazirlər Kabinetinə tapşırılır ki, bu sərəncamdan irəli gələn məsələləri həll etsin.

# General-polkovnik Vilayət Eyvazov Səudiyyə... Krallığının səfirini qəbul etdi



**Daxili işlər naziri, general-polkovnik Vilayət Eyvazov Səudiyyə Ərəbistanı Krallığının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Həməd Abdulla Xudeyri qəbul edib.**

DİN-in Mətbuat xidmətindən "Bakı Xəbər"ə verilən məlumata görə, qonağı salamlayan nazir Səudiyyə Ərəbistanı Krallığının beynəlxalq təşkilatlarda hər zaman Azərbaycanı dəstəklədiyini məmnunluqla qeyd edərək, dövlətlərimizin rəhbərləri arasında olan şəxsi dostluq münasibətlərinin, qarşılıqlı səfərlərin, yüksək səviyyədə imzalanmış sənədlərin əməkdaşlığın daha da dərinləşməsinə təkan verdiyini, xüsusən son illər bu əlaqələrin dinamik şəkildə inkişaf etdiyini bildirib. Daha sonra qonağa mövcud kriminogen durum, daxili işlər orqanlarında həyata keçirilən islahatlar, sabitlik və əmin amanlığın qorunub saxlanması üçün görülən işlər barədə qısa məlumat verilib.

Azərbaycan Respublikasının və Səudiyyə Ərəbistanı Krallığının daxili işlər orqanları arasındakı əlaqələrə toxunan nazir Vilayət Eyvazov bu əməkdaşlığın 2018-ci il fevralın 19-da imzalanmış "Azərbaycan Respublikası və Səudiyyə Ərəbistanı Krallığı arasında cinayətkarlığa qarşı mübarizə sahəsində əməkdaşlıq haqqında Protokol" və Beynəlxalq Kriminal Polis Təşkilatı (İNTERPOL) çərçivəsində həyata keçirildiyini diqqətə çatdırıb.

Cənab Həməd Abdulla Xudeyr səmimi qəbula və ətraflı məlumata görə təşəkkür edib, diplomatik fəaliyyəti dövründə, paytaxt Bakı da daxil olmaqla, ölkəmizin bütün bölgələrində hökm sürən stabillik, əmin amanlıq şəraitindən məmnun olduğunu deyib. Məhz təhlükəsizlik və sabitlik faktorlarının, ən müasir tələblərə cavab verən yeni infrastrukturların və xidmət sahələrinin yaradılması hesabına Azərbaycanın əcnəbilər üçün cəlbedici dövlətə çevrildiyini, nəticədə Səudiyyə Ərəbistanı Krallığından gələn turistlərin sayının ilbəil artdığını vurğulayan səfir bu işdə ölkə rəhbərliyinin və hüquq mühafizə, o cümlədən daxili işlər orqanlarının danılmaz rolu olduğunu diqqətə çatdırıb, bundan sonrakı fəaliyyəti dövründə də əlaqələrimizin bütün sahələrdə inkişaf etdirilməsi üçün səylərini əsirgəməyəcəyini bildirib.

Səmimilik və işgüzar şəraitdə keçən görüşdə təhlükəsizlik sahəsində əlaqələrin mövcud vəziyyəti, prioritet istiqamətləri barədə faydalı fikir mübadiləsi aparılıb, qarşılıqlı maraq doğuran bir sıra digər məsələlər müzakirə olunub.

# Prezident Əliyevin Azərbaycanda 2003-cü ildən başlayan inkişafı əks etdirən rəqəmləri və Ermənistanın siyasi-hakim dairələrini narahat edən motiv...

**"Regionların 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın icrasının birinci ilinin yekunlarına həsr olunan konfransda Prezident İlham Əliyev Azərbaycanın təşəbbüsü, təşkilatçılığı ilə həyata keçirilən layihələrin hər birinin tarixi əhəmiyyət daşıdığını söyləyib.**

Prezident bu layihələrin, ümumiyyətlə, görülən işlərin hamısının Azərbaycan xalqı qarşısında böyük xidmətlər olduğunu vurğulayıb.

Dövlət başçısı qeyd edib ki, uğurlu inkişafımızı, sabitliyi şərtləndirən, cəmiyyətdə xoş əhval-ruhiyyəni formalaşdıran bizim siyasətimiz və addımlarımızdır: "Nəyi demişiksə, onu da etmişik. Bir dənə də icra edilməmiş vəd yoxdur. Heç kim bunu tapa bilməz. 2003-cü ildə və ondan sonrakı illərdə nəyi demişəmsə, onu da etmişəm. Ona görə bizim sözümüzə də, işimizə də xalq tərəfindən böyük inam var. Mən həmişə demişəm ki, bizim sözümüzün qüvvəti imzamız qədər olmalıdır və bu gün bu, belədir".

Maraqlıdır ki, erməni mətbuatı İlham Əliyevin nitqindəki bu məqama çox böyük diqqət ayırır və özlərinə sərf edən tərzdə yorumlar edirlər. İlham Əliyevin "2003-cü ildə və ondan sonrakı illərdə nəyi demişəmsə, onu da etmişəm" kimi səsləndirdiyi fikri və həmin zamandan indiyə qədər Azərbaycanın əldə etdiyi uğurları barədə söylədikləri Ermənistan hakim dairələrini niyə ciddi narahat edir? Erməni KİV-indəki abhava onların hakimiyyətinin məsələlərə olan münasibətinin tam inikasıdır. Cənab Prezidentin geniş və məzmunlu nitqində olan məhz bu məqama diqqət yönəltmələri təsadüfi deyil. Çünki İlham Əliyev məhz 2003-cü ildə Prezident seçilib. Onun həmin zamandan başlayaraq, verdiyi bütün sözlərə əməl etməsi tam reallığı əks etdirir. Bu müddət ərzində Azərbaycanda ölçüyəgəlməz dərəcədə inkişaf olub. Bunu bütün beynəlxalq reytinq agentlikləri də öz hesabatlarında qeyd edirlər. İlham Əliyevin prezidentliyi dönəmidə əldə olunan uğurlar konkret bir sahəni yox, bütün seqmentləri əhatə edir. Ermənistan bizimlə düşmən ölkədir. Təbii ki, onlar Azərbaycanın qüdrətli olmasını yox, iqtisadi cəhətdən çökməsini istəyirlər. Ancaq 2003-cü ildən İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən siyasət onların istəyinin reallaşmasına qəti imkan vermir. Azərbaycan həmin



zamandan bəri həm də hərbi cəhətdən daha da qüdrətli ölkəyə çevrilib. Ermənistan rəhbərliyini narahat edən məqamlardan biri də budur ki, nümayiş etdirdikləri qeyri-konstruktivliyin hər an hərbi yolla cavabını ala bilərlər. Ən əsası isə İlham Əliyev bu keyfiyyətlərinə görə həm də sözünün ağası olan bir ölkə başçısı kimi xarakterizə olunur. Onların özündə isə bütün sadalananlar yoxdur. 2003-cü ildən bəri Azərbaycan və Ermənistanın inkişafları arasında paralellər aparsaq, ortaya dəhşətli dərəcədə təzadlı mənzərə çıxacaq. Ermənistan bu müddət ərzində çöküb. Demoqrafik vəziyyət acınacaqlı hal alıb. Ölkənin daxilində vətəndaş qarşıdurması hökm sürür. Bunun nəticəsində hakimiyyət sivil yox, inqilab yolu ilə dəyişdirildi.

Hazırda Ermənistana rəhbərlik edən Baş nazir Nikol Paşinyan hakimiyyətə gəldiyi meydanlarda xalqa verdiyi sözləri necə, yerinə yetirə bilibmi? Təbii ki, yox. Bunu təkcə biz demirik, həm də Ermənistanın daxilindəki ictimai rəy Paşinyanı verdiyi sözlərə əməl etməyən bir avantürist kimi qiymətləndirir. Məhz buna görə də Ermənistan hakimiyyətini İlham Əliyevin nitqində məhz deyilən məqamın narahat etməsi təsadüfi sayıla bilməz. Çünki verdiyi sözə əməl etmək siyasətçi üçün çox önəmli sayılan keyfiyyətdir ki, İlham Əliyev buna tam sahibdir.

*Məhəmmədəli QƏRİBLİ*

# ABŞ-ın Nyu Meksiko Ştat Senatı Qara Yanvar faciəsinin 30-cu ildönümü barədə bəyannamə qəbul edib

**ABŞ-ın Nyu Meksiko Ştat Senatı fevralın 4-də Qara Yanvar faciəsinin 30-cu ildönümü ilə bağlı geniş bəyannamə qəbul edib.**

Azərbaycanın Los Ancelesdəki Baş Konsulluğundan "Bakı Xəbər"ə bildirildiyinə görə, bəyannamədə faciə kəskin şəkildə pislənilərək, azadlıq mübarizəmizin ilk qurbanlarının xatirəsi hörmətlə anılıb. Azərbaycanın Los Ancelesdəki Baş Konsulluğuna göndərilən bəyannamə Senatın plenar iclasında qəbul olunub. Azərbaycanın Los Ancelesdəki baş konsulu Nəsimi Ağayev Nyu Meksiko Ştat Senatının rəhbərliyinə məktub ünvanlayaraq, bu tarixi bəyannaməyə görə amerikalı senatorlara təşəkkürünü bildirib.

Senatın plenar iclasında oxunan bəyannamədə 1918-ci ildə Azərbaycan xalqının müsəlman dünyasında ilk dünyəvi və demokratik respublika yaratdığı, ancaq iki il sonra bolşevik işğalı nəticəsində müstəqilliyinə son qoyulduğunu və 71 il ərzində Azərbaycanın Sovet əsarətində qaldığı bildirilir. Qeyd olunur ki, Azərbaycan xalqının azadlıq arzularını boğmaq üçün 1990-cı ilin 20 yanvar tarixində 26 minlik Sovet qoşunu Bakıda mülki əhaliyə qarşı amansız qırğın törədərək, aralarında uşaqlar, qadınlar və yaşlılar da olan böyük sayda günahsız insanı qətlə yetirib. Vurğulanır ki, bu qətliam azadlıq uğrunda mübarizədə Azərbaycan xalqının qətiyyətini daha da gücləndirərək, 1991-ci ildə Azərbaycanın öz müstəqilliyini yenidən bərpa etməsinə gətirib çıxarıb.

Həmçinin, sənəddə qeyd olunur ki, Azərbaycan bu gün ABŞ-ın regional müttəfiqi və dostudur və Nyu Meksiko ştatında baş konsul və fəxri konsul vasitəsilə təmsil olunan Azərbaycan bu ştat ilə son illərdə güclü münasibətlər qurub.




Bəyannamənin sonunda vurğulanır ki, Nyu Meksiko Senatı Qara Yanvar faciəsinin 30-cu ildönümünü və Azərbaycanın azadlıq və müstəqillik mübarizəsinin qurbanlarının xatirəsini hörmətlə anır.

Qeyd edək ki, Azərbaycanın Nyu Meksikodakı fəxri konsulu Art Makhaffi plenar iclasda iştirak edib. Bəyannamə senator Ortiz i Pino tərəfindən fəxri konsula təqdim olunub.

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 3-də "Azərbaycan Respublikası regionlarının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın icrasının birinci ilinin yekunlarına həsr olunan konfransdakı yekun nitqində bildirib ki, Azərbaycanda kölgə iqtisadiyyatı olmamalıdır:**



# Azərbaycanda kölgə iqtisadiyyatının səviyyəsinə Prezidentin reaksiyası - "dəhşətlə" barışmaz mübarizə başladı...

***Aydın Hüseynov:** "Bu belə ilə mübarizə həm də bizi bir vətəndaş olaraq zənginləşdirirsə, hamılıqla kölgə iqtisadiyyatı ilə mübarizəyə töhfə verməliyik"*

"Vəssalam, çox sadə. Düzdür, hər yerdə var, hər ölkədə var. Bizdə bu, dözülməz dərəcəyə gəlib çıxmışdır. O təhlil mənə veriləndə, sözün düzü, çox dəhşətə gəldim. Ona görə buna son qoyulur. Vergi və gömrük orqanları keçən il proqnozdan əlavə 1 milyard manatdan çox vəsaiti nəyin hesabına toplayıblar? Onun hesabına ki, bu pullar kiminsə cibinə gedirdi və bu pullardan Azərbaycan vətəndaşı məhrum idi. Biz bu şəffaflığı təmin edərkən, mən qeyd etdiyim sosial təşəbbüsü reallaşdıra bildik. O pul qəpiyinə qədər insanların maaşına, pensiyasına, təqaüdünə, müavinətinə getdi.

İndi biz kölgə iqtisadiyyatına göz yuma bilərikmi? Qətiyyən yox! Yenə də deyirəm, kölgə iqtisadiyyatına son qoyulmalıdır və dövlət orqanları bir keçid dövrü də müəyyən edib. Çünki bəri başdan çox sərt tədbirlər görmək düzgün olmaz. İnsanlar buna gərək yavaş-yavaş öyrəşsinlər. Amma biz bu güzəşt müddətini də çox uzada bilmərik. Ona görə bu il bütün iqtisadiyyat kölgədən çıxmalıdır, bütün sahibkarlar vergisini ödəməlidir. Əgər kimsə mənim bu sözlərimdən sonra yenə də köhnə qayda ilə işləmək, kiməsə arxalanmaq istəyəcəksə, bilsin ki, bu, alınmayacaq. Heç kimə güzəşt yoxdur. Bunu indi hamı bilir. Hər kəs bərabərdir. Heç bir toxunulmaz sahibkar da yoxdur, heç bir toxunulmaz məmur da yoxdur. Hər kəs qiymətini də, mükafatını da, cəzasını da öz əməlinə görə alacaq. Bunu bilməlisiniz".

Göründüyü kimi, ölkə başçısı kölgə iqtisadiyyatı ilə ciddi mübarizənin aparıldığını qeyd edib. Bu belə ilə ciddi mübarizə aparıldığını və bu il tam nəticənin əldə olunmasının qarşıya qoyulduğunu bəyan edib. Azərbaycanda aparılan bu işlər kölgə iqtisadiyyatından tam xilas olacağımıza dair bizdə əminlik yadara bilərmi?

Millət vəkili Aydın Hüseynov "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, Prezidentin dediyi kimi, kölgə iqtisadiyyatı hər yerdə var və onun tam aradan qaldırılması üçün müəyyən zaman lazımdır: "Hansısa neqativliyin tam yox edilməsi bir az çətindir. Kölgə iqtisadiyyatı cinayət növü sayılır və dünyanın hər bir yerində var. Dünyanın inkişaf etmiş ölkələrində cinayət varsa, deməli, bu növ cinayət də olacaq. Burada faiz dərəcəsindən söhbət gedə bilər. Cənab Prezidentin özü də deyir ki, ilk dəfə həmin hesabatla tanış olanda dəhşətə gəlib. Azərbaycanda kölgə iqtisadiyyatının mövcudluğu bir neçə amillə izah edilə bilər. İş adamlarının daha çox qazanmaq istəyi, yəni tamahkarlığı və bununla mübarizə aparmalı olan qurumların səhlənkar münasibəti, bəzən isə korporativ maraqlarını güdməsi ilə. Bununla mübarizə üçün ən ali səviyyədə siyasi iradə ortaya qoyulub və məsuliyyətlər müəyyənləşib. Ortadakı nəticəni Prezidentin öz dedi. Büdcəyə bir milyard manat daxil olub. Qısa müddət üçün bu gözəl göstəricidir. Mübarizə davam etdirilir və əminəm ki, toplanan məbləğ daha da artacaq. Yaxşı olar ki, həm səlahiyyətli şəxslər, həm də bəzi iş adamları bu mənzərədən özləri nəticə çıxarsınlar.

Bilsinlər ki, artıq belə hallara heç kim göz yuman deyil. Əminəm ki, yaxın zamanlarda bizdə kölgə iqtisadiyyatı ilə bağlı göstərici əhəmiyyətli şəkildə azalacaq. Biz hamılıqla çalışmalıyıq ki, ölkəmizin büdcəsi artsın. Görürsünüz, ölkə başçısı deyir ki, daxil olan vəsaitlərin hamısı əməkhaqları və müavinətlərin ödənilməsinə yönəldilib. Deməli, bu belə ilə mübarizə həm də bizi bir vətəndaş olaraq zənginləşdirirsə, hamılıqla kölgə iqtisadiyyatı ilə mübarizəyə töhfə verməliyik".

***Məhəmmədəli QƏRİBLİ***

---

**Azərbaycanda əmanətlərin tam məbləğdə sığortalanması ilə bağlı müddət başa çatmağa yaxınlaşdıqca (martın 4-də bü müddət bitir), əmanətlərin sonrakı taleyi ilə bağlı müzakirələr başlayıb.**



# Elman Rüstəmov "oxu atıb, yayın gizlətdi" - əmanətlərin yeni sığortalanması necə olacaq...

***Əkrəm Həsənov:** "Əmanətlərin sığortalanmasının hazırkı modeli dəyişsə..."*

> *"Əmanətlərin tam sığortalanması sistemi faiz dərəcələrinin yüksək olmasından xəbər verir"*

Azərbaycan Mərkəzi Bankının son açıqlamaları göstərir ki, bununla bağlı dəyişiklik gözlənir, daha dəqiqi, əmanətlərin tam məbləğdə sığortalanması indiki formada davam etməyəcək. Belə ki, ötən həftənin sonunda Azərbaycan Mərkəzi Bankının sədri Elman Rüstəmov keçirdiyi mətbuat konfransında bu məsələyə toxunub. Mərkəzi Bank sədri qeyd edib ki, əmanətlərin tam sığortalanması sistemindən yumşaq çıxmaq daha məqsədəuyğundur: "Yeni sığorta modeli üzərində düşünürük. Bu, sahədə bütün problemlər həll edildikdən sonra olmalıdır, eyni zamanda, keçid də yumşaq olmalıdır. Maliyyə sektorunda problemlər hələ həll olunmayıb. Bu gün maliyyə sabitliyi var. Ancaq nöqtəvi problemlər də mövcuddur. AMB olaraq bütün problemləri qısa müddətdə həll etməliyik".

Maraqlıdır, əmanətlərin sığortalanmasının hansı modeli Azərbaycan üçün daha uyğun olar?

Bank sahəsi üzrə mütəxəssis Əkrəm Həsənov qeyd etdi ki, əmanətlərin tam sığortalanması sistemi heç bir yerdə yoxdur: "Yalnız Azərbaycanda belə bir sistem var idi. Mən elə 2016-cı ildən qeyd edirdim ki, bu düzgün deyil. Çünki bizdə elə bir səhv təsəvvür var ki, guya bu əmanətlər dövlət hesabına sığortalanır. Əslində isə belə deyil, sahibkarların hesabına sığortalanır. Yəni hansısa bank müflis olur, müflis olduqdan sonra Əmanətlərin Sığortalanması Fondu əmanətçilərin əmanətini qaytarır. Sonra isə bankın əmlakını satıb, bankın verdiyi kreditləri qaytarıb və vətəndaşlara verdiyi pulu oradan götürürdü. Bankda yalnız vətəndaşların əmanətləri qalmayıb axı, sahibkarların da əmanətləri var. Onlara heç nə çatmır. Hər şey onların hesabına olur. Bu da birinci problemdir. Bu problem də sahibkarları banklardan qaçırdır.

Məsələnin ikinci tərəfi də odur ki, əmanətlərin tam sığortalanması sistemi faiz dərəcələrinin yüksək olmasından xəbər verir, o cümlədən, kreditlər üzrə. Tutaq ki, bir bankın faiz dərəcəsi yüksəkdirsə, deyək ki, 10%-lə qəbul edir, hamı oraya əmanətlərini qoyur. Faiz dərəcələrini aşağı salanda oraya heç kim getmir. Əmanəti yüksək faizlə qəbul edən bank krediti də yüksək faizlə verir. Bu da ikinci problemdir".

Ekspert hesab edir ki, hazırkı model dəyişsə, banklar aşağı faizlə kredit verə biləcəklər: "Amma əmanətlərin tam sığortalanması olmayanda, tutaq ki, əvvəlki sistemə qayıdırıqsa, onda vətəndaşlar bütün pullarını bir banka qoymur.

**Yəni vətəndaş əmanətini bölüb banklara qoyur. Burada da aşağı faizlə əmanət qoymağa məcbur olur. Bu halda da banklar aşağı faizlə kredit verə biləcəklər. Bu, ölkə iqtisadiyyatı üçün yaxşıdır. Amma indiki vəziyyət düzgün deyil. Buna görə də yaxşı ki, Mərkəzi Bank artıq bu problemi həll etməyə başlayıb".**

***Günel CƏLİLOVA***

**Növbədənkənar parlament seçkilərinin təbliğat-təşviqat kampaniyası çərçivəsində Yeni Azərbaycan Partiyasının 65 saylı Saatlı-Sabirabad-Kürdəmir seçki dairəsindən deputatlığa namizədi, akademik Əhliman Əmiraslanov Kürdəmir rayonunun Carlı, Sığırlı və Ərəbqubalı kəndlərinin seçiciləri ilə görüşlər keçirib.**

# Deputatlığa namizəd akademik Əhliman Əmiraslanov Kürdəmirin daha üç kəndində seçki rəqiblərini tam üstələdi









Görüşlərdə YAP Kürdəmir rayon təşkilatının və YAP Mərkəzi Seçki Qərargahının Kürdəmir rayon şöbəsinin sədri Ağəli Kərimli qarşıdan gələn parlament seçkiləri haqqında danışıb, seçkilərdə YAP tərəfindən ən layiqli namizədlərin irəli sürüldüyünü deyib. Partiyanın "Daha güclü Azərbaycan naminə!" şüarı ilə uğur qazanacağından və növbəti 5 ildə də uğurlu nailiyyətlərin şahidi olacağımızdan bəhs edib: "Fevralın 9-da keçiriləcək seçkilərdə də akademik Əhliman Əmiraslanovun qalib gələcəyinə şübhə yoxdur. Həm xalqımızın YAP-a böyük dəstək və inamı, həm də partiyamızın namizədi, akademik Əhliman Əmiraslanova kürdəmirlilərin hörmət və ehtiramı bu əminliyi daha da gücləndirir."

Görüşlərdə rayon seçki qərargahının üzvləri Sabir Novruzov və Mais Bayramov çıxış edərək ölkəmizin sürətli inkişafından danışıb, aparıcı siyasi qüvvə olan Yeni Azərbaycan Partiyasının namizədi, akademik Əhliman Əmiraslanovun Azərbaycan tibb elmini dünyada tanıdan alimlərdən biri olduğunu seçicilərin diqqətinə çatdırıblar.

YAP tərəfindən namizədliyi irəli sürülmüş akademik Əhliman Əmiraslanov çıxış edərək, Yeni Azərbaycan Partiyasının namizədi kimi seçki platforması və növbəti dəfə deputat seçiləcəyi təqdirdə görəcəyi işlər barədə məlumat verib. Daha sonra ölkəmizdə həyata keçirilən siyasətin uğurlu nəticələrindən danışaraq, əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulan və bu gün Prezident İlham Əliyevin davam etdirdiyi siyasi kursun Azərbaycana cox böyük uğurlar qazandırdığını diqqətə çatdırıb. Namizəd vurğulayıb ki, dünyada, regionda gedən proseslər və bu proseslərdə Azərbaycanın yeri, xüsusilə son zamanlar Prezident İlham Əliyevin siyasi iradəsi ilə ölkədə aparılan kadr və struktur islahatları, bu islahatların əhəmiyyəti və Azərbaycan dövlətçiliyinin dayanaqlılığının möhkəmləndirilməsində və xalqın maddi rifahının daha da yaxşılaşdırılmasında rolu danılmazdır.

**Görüşlərdə seçicilər adından çıxış edən sözügedən kəndlərin sakinləri fevralın 9-da seçki məntəqələrinə gedərək Yeni Azərbaycan Partiyasının namizədini, akademik Əhliman Əmiraslanovu dəstəkləyəcəklərini bildiriblər.**

**Şanxay Əməkdaşlıq Təşkilatının (ŞƏT) seçki müşahidə missiyası fevralın 9-da Azərbaycanda keçiriləcək növbədənkənar parlament seçkiləri ilə bağlı öz işinə başlayıb. Təşkilatın saytında yayılan məlumatda bildirilir ki, seçki müşahidə missiyasına ŞƏT baş katibinin müavini Sherali Saidamir Jonon rəhbərlik edir.**

# 9 fevral seçkilərini müşahidə etmək üçün daha bir beynəlxalq təşkilat qərar verdi - seçkiyə beynəlxalq maraq artır...



Seçki müşahidə missiyasına ŞƏT-ə üzv dövlətlərin qanunverici, icra və seçki orqanlarının nümayəndələri, həmçinin, ŞƏT Katibliyinin rəsmiləri daxil edilib. Onlar Bakı və Abşeron yarımadasında, Sumqayıt, Şirvan şəhərlərində, həmçinin, onlara yaxın ərazilərdə müşahidə aparacaqlar.

Seçki müşahidə missiyası seçki məntəqələrinin hazırlığını öyrənəcək, səsvermə prosesinin monitorinqini aparacaq, seçki kampaniyasının təşkili, səslərin sayılması prosesini müşahidə edəcək, həmçinin, seçicilər, namizədlərin nümayəndələri və digər müşahidəçilərlə görüşəcəklər.

## *Rəfail Becanov: "ŞƏT-lə bu formada əməkdaşlıq həm ölkəmiz, həm də həmin təşkilat üçün böyük əhəmiyyət daşıyır və bunun hər iki tərəfə faydası var"*

ŞƏT müşahidə missiyası fevralın 10-na kimi Azərbaycanda olacaq.

Azərbaycanda keçirilən seçkilərin monitorinqini bir çox tanınmış qurum aparır. Ancaq Şanxay Əməkdaşlıq Təşkilatı bu missiyaya yeni qoşulub. Bu baxımdan da maraqlıdır, belə müşahidə missiyyasının ölkəmizə göstərdiyi maraq nə ilə bağlı ola bilər?

Razi Nurullayevin rəhbərlik etdiyi AXCP-nin funksioneri Rəfail Becanov "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, bunun özü çox yaxşı göstərici sayıla bilər: "Bilirsiniz ki, Azərbaycan müstəqil olandan sonra çoxlu sayda seçki keçirib. Həmin seçkilərin hamısında beynəlxalq müşahidəçilər iştirak ediblər. Avropada yerləşən təşkilatların böyük əksəriyyəti, o cümlədən, Azərbaycanın üzvü olduğu MDB-dən xeyli müşahidəçi ölkəmizdə keçirilən seçkiləri monitorinq edib. Şanxay Əməkdaşlıq Təşkilatının da bu müşahidə missiyasına qoşulmasını bir çox səbəblə izah etmək olar. Əvvəla bu, Azərbaycanın strateji əhəmiyyəti ilə bağlıdır. Çünki ölkəmiz Şərqlə Qərbin arasında Böyük İpək Yolunun astanasında yerləşir. Buna görə də ŞƏT-ə üzv olan ölkələrin Azərbaycana marağı çox böyükdür. Digər səbəblərdən biri Azərbaycanın iqtisadi inkişafı ilə əlaqəlidir. Məlumdur ki, ŞƏT-ə üzv olan ölkələrin, demək olar ki, hamısının Azərbaycanla yaxşı siyasi və iqtisadi əlaqələri mövcuddur. Ölkədə keçirilən seçkilərə müxtəlif profilli müşahidə missiyalarının maraq göstərməsi maraqlı olmaqla yanaşı, həm də seçkilərin azad, demokratik keçirilməsini şərtləndirən amildir.

ŞƏT-lə bu formada əməkdaşlıq həm ölkəmiz, həm də həmin təşkilat üçün böyük əhəmiyyət daşıyır və bunun hər iki tərəfə faydası var. Əlaqələrin daha da möhkəmlənməsinə, münasibətlərin daha da dərinləşməsinə xidmət edəcək addımdır. Bu baxımdan da belə ciddi qurumun bizdəki seçkiləri müşahidə etməsi həm də prosesin şəffaflığı üçün əhəmiyyətlidir. Eyni zamanda, seçkiyə olan böyük beynəlxalq marağın göstəricisidir".

***Məhəmmədəli QƏRİBLİ***

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az

**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**



# Qarabağ probleminin həll olunmaması Ermənistanda yeni klanlararası savaşın və sabitsizliyin mənbəyi kimi...

**Ermənistan daxilində baş verənlərin, xüsusən də mövcud hakimiyyətlə "Qarabağ klanı" arasında ziddiyyətin dərinləşməsinin Dağlıq Qarabağ münaqişəsinə təsirinin hansı formada olacağı əsas müzakirə predmetlərindən birinə çevrilib.**

Düşmən ölkənin özündə səslənən fikirlərdən belə bəlli olur ki, yaşanan ziddiyyət tərəflərin Qarabağ cəbhəsində müəyyən addımlar atmasına, bundan bir-birinə qarşı istifadə etməsinə gətirib çıxara bilər. Ermənistanın "Past" nəşri yazır ki, belə vəziyyətdə cari ildə Qarabağ məsələsində müəyyən yeniliklər də ola bilər.

Qəzet yazır ki, Ermənistanda hakimiyyət dəyişdikdən sonra baş nazir Nikol Paşinyan korrupsiyaya qarşı barışmaz mübarizəsi barədə dəfələrlə danışaraq, bu məsələdən rəqiblərini neytrallaşdırmaq üçün istifadə edir: "Eyni zamanda, Paşinyan təmsil etdiyi hökumətin korrupsiyadan uzaq olduğunu iddia edib, lakin bir qədər sonra bəlli oldu ki, hökumət daxilində korrupsiyadan azad olmayan məmurlar da var. Burada yalnız aşkar edilmiş hallar danışılır, ancaq açıqlanmayan faktların az olmadığına dair zəmanət varmı? Düşünürük ki, belə bir zəmanət yoxdur. Hökumət daxilindəki korrupsiya hadisələri ilə bağlı məsələnin kökündən həll edilməməsinə baxmayaraq, korrupsiyaya qarşı mübarizə məsələsi siyasi müstəviyə keçib. Problem ondadır ki, baş nazir Paşinyan reytinqini qorumaq üçün davamlı olaraq sübut və hökm olmadan rəqiblərini, keçmişdə vəzifədə olmasından asılı olmayaraq, korrupsiyada ittiham edərək korrupsioner adlandırır. Məhkəmənin qanuni qərarları olmadan isə heç kimin bu və ya digər şəxsə ittiham irəli sürmək hüququ yoxdur. Baş nazirə prokuror və ya hakim səlahiyyətləri verilmir və bu baxımdan Paşinyan siyasi düzgünlüyü təmin etməlidir, çünki yol verdiyi ifadələr məhkəmə qərarı ilə təsdiqlənməyə və sonradan o, üzr istəməli ola bilər. Yeri gəlmişkən, qısa müddətdə Paşinyana qarşı böhtan atmaqla bağlı çox sayda iddia qaldırıla biləcəyi barədə şayiələr gəzir. Korrupsiyaya qarşı mübarizənin bu fonunda müxtəlif ekspertlərin hazırkı hökumətin antikorrupsiya alət dəstgahının siyasi rəqiblərini susdurmaq üçün istifadə edildiyi mövzusunu gündəmə gətirməsi təsadüfi deyil.

Bu yaxınlarda verdiyi müsahibəsində bu məsələyə toxunan tanınmış iqtisadçı Daron Acemoğlu Ermənistan hakimiyyətini korrupsiyaya qarşı mübarizəni siyasi rəqiblərini təqib etmək vasitəsinə çevirməməyə çağırış edib. Buradakı nəzarət olunan məhkəmələr şəraitində hakimiyyət korrupsiyaya qarşı mübarizəni prioritet elan edib, amma əslində bunu siyasi rəqiblərə qarşı yönəldib. Qafandakı mətbuat konfransında da Paşinyan Acemoğlunun fikirləri ilə razılaşdığını deyib. Paşinyan, əslində, Ermənistandakı korrupsiyanın siyasi rəqiblərə qarşı istifadə edilmədiyini göstərməyə çalışıb, amma faktlar bunun əksini sübut edir və Acemoğlunun bununla bağlı xəbərdarlığı təsadüfi deyildi. Mövcud hakimiyyətin antikorrupsiya alətlərini siyasiləşdirmə yanaşmasına qarşı onun rəqibləri Qarabağ kartından istifadə edə bilər. Qarabağ cəbhəsində istənilən hansısa yeni məğlubiyyət Paşinyan iqtidarı üçün ciddi zərbə olacaq. Paşinyanın rəqibləri Qarabağda hələ də güclü mövqe sahibidirlər. Onlara qarşı Paşinyanın təzyiqi davam edərsə, rəqiblər Qarabağ kartından mütləq istifadə etməyə çalışacaq".

İndilikdə görünən budur ki, Ermənistan daxilində parçalanma və qarşıdurma bir qədər də sürətlənəcək. Bəzi ekspertlər bildirir ki, əslində, "Qarabağ klanı"nın istədiyi də budur. Çünki belə vəziyyətdə Ermənistanda qarşıdurma və ziddiyyət daha da dərinləşir, xaos artır. Məhz bu xaos durumunda "Qarabağ klanı" Paşinyanı devirməyin daha asan olduğunu düşür. Digər tərəfdən, bu vəziyyətdə zəbt olunmuş ərazilərin daha bir hissəsinin Azərbaycana qayıtması Paşinyanın mövqelərini daha sürətlə sarsıdacaq. Erməni mediası yazır ki, məsələnin başqa bir tərəfi də var, o da bundan ibarətdir ki, Paşinyan bəri başdan zəbt edilmiş ərazilərin bir hissəsinin Azərbaycanın nəzarətinə qayıtmasının günahkarı qismində "Qarabağ klanı"nı göstərmək istəyir və bununla həmin klana zərbə vuracağını düşünür. Yəni istənilən halda, həm Paşinyan, həm də "Qarabağ klanı" işğal altındakı ərazilərin daha bir hissəsinin Azərbaycana qayıtmasını istəyir və bunu da öz siyasi məqsədləri naminə edirlər. Beləliklə, Ermənistanda yaşananlar Qarabağ məsələsində tezliklə müəyyən dəyişikliklərin olmasını istisna etmir. Tərəflər arasında dərinləşən ziddiyyət də bu ehtimalı artırır. Belə bir vaxtda yayılan məlumata görə, Nikol Paşinyan Dağlıq Qarabağdakı separatçı rejimi maliyyələşdirməkdən imtina etməyi düşünür. Səbəb kimi separatçıların silahlı dəstəsinin Paşinyana tabe olmaq istəməməsi göstərilir. Belə ehtimal edilir ki, onların atəşkəsi pozması Ermənistanın hökumət başçısına təzyiqlərin artmasına səbəb olur. Erməni mediası yazır ki, əvvəllər separatçı rejimlərin başçıları Ermənistanın keçmiş prezidentlərinə tabe idi. Onlar Kşçaryanın və Sarkisyanın əmrlərini sözsüz icra edirdilər. Ancaq indiki halda Bako Saakyan və onun dəstəsi Ermənistana itaətsizlik göstərir. Bunun səbəblərindən biri Paşinyanın separatçıların indiki başçısını dəyişməyə cəhd göstərməsidir. Buna artan müqavimət isə tərəfləri daha ziddiyyətli mövqeyə sürükləyir. İndi Ermənistanda ciddi şəkildə narahatdırlar ki, bu durum davam edərsə, proseslərin nəticələri İrəvana çox baha başa gələcək. Bunu rusiyalı politoloq Vitali Arkov da təsdiq edir. Onun fikrincə, Paşinyan ölkədə iqtisadiyyatın çökdüyü bir vaxtda öz reytinqini bərpa etmək təlaşındadır və bu məsələdə Qarabağ kartından yararlamağa çalışır: "Amma o ciddi nöqsanlara da yol verir. Paşinyanın iqtisadi sahədə möcüzə yaratmaqda acizliyi elə bəri başdan bəllidir, amma əhalinin yoxsulluqda yaşayan çoxluğunu hər cür nağılla aldatmaq çətin deyildi. İndi isə Ermənistan xalqının qazancı boş sözlər, ən dəhşətlisi də Dağlıq Qarabağdan gələcək minlərlə tabut, minlərlə şikəst olacaq. Yəni Paşinyan bir çox erməni ailələrinə faciə gətirə bilər. "Qarabağ klanı" ilə Paşinyanın arasında ziddiyyətlərin daha da dərinləşməsini gözləmək olar. Baş nazir Qarabağdakı separatçı rejimi nəzarətə götürmək istəyir. Dağlıq Qarabağın köhnə kadrlardan təmizlənmədiyi az qala yeganə ərazi olması baş naziri və onun arxasındakı qrupları xeyli narahat edir. Bu vəziyyətdə tərəflər arasında ziddiyyət daha da dərinləşir və bu hal Qarabağ münaqişəsinin gedişinə də təsirsiz ötüşməyəcək". Bütün bunlar bir daha təsdiq edir ki, Ermənistanda Qarabağ məsələsi ətrafında ziddiyyətlər dərinləşir və bu hal düşmən ölkənin münaqişə ətrafında mövqelərini daha da zəiflədir. Erməni şərhçi Sarkis Artsruni bu xüsusda bildirir:"İrəvan və Xankəndi arasında qarşıdurma yaşanır və bu, gizli siyasi zərbələrin endirilməsi ilə nəticələnə bilər. Ermənistan üçün təhlükəli vəziyyət yaranıb. Qarabağ "hakimiyyəti" Nikol Paşinyandan uzaqlaşır, zaman keçdikcə onun bütün əleyhdarları ilə həmrəy olur. Bu qarşıdurma Ermənistanı uçuruma aparır. Azərbaycan bundan mütləq istifadə etməyə çalışacaq". O da bildirilir ki, "Qarabağ klanı" ilə Paşinyan arasında ziddiyyət tezliklə özünün pik həddinə çatacaq. Belə ki, martın 31-də Qarabağ rejimində "prezident" və "parlament" seçkisi keçiriləcək. Separatçı rejimdə "prezident seçkisi" uğrunda mübarizədə Vitali Balasanyan, Masis Mailyan, Araik Arutyunyan, Aşot Qulyan, David İşxanyan iştirak edəcəklərini açıqlayıb. "Seçki"də əsas mübarizənin hazırkı Ermənistan hakimiyyəti ilə "Qarabağ klanı"nın prezident postuna nəzarəti uğrunda aparılacağı vurğulanır. Paşinyan separatçıların rəhbəri vəzifəsinə öz adamı kimi Araik Arutyunyanı gətirməyi düşünür. Amma digər tərəf Vitali Balasanyanı yeni sepataçı lider kimi görmək istəyir. Bu fonda Paşinyan Vitali Balasanyana qarşı mövqeyini daha da sərtləşdirir. "1in.am" saytı bu xüsusda yazır: "Balasanyan Qarabağda vəzifəsində olarkən daha nəzarət olunan və müəyyən edilə bilən idi. Xankəndiyə qarşı siyasi və administrativ resurslarla, hər şeydən öncə, onun təhlükəlilik səviyyəsini məhdudlaşdırmaq mümkün olurdu. İndi o, idarəolunmaz və qeyri-müəyyəndir. Balasanyan indi Serj Sarkisyanın "ağır artilleriyası"dır. Vitali Balasanyan bu fonda Paşinyanı daha sərt formada tənqid edir. Məsələn, o bildirir: "Nikol Paşinyan bəzən absurd, bir-birini təkzib edən fikirlərlə çıxış edir. O gah deyir ki, "Qarabağ Ermənistandır", gah da deyir, "Qarabağ üçüncü tərəf kimi danışıqlarda iştirak etməlidir. Nikol Paşinyan və rəhbərlik etdiyi hökumət dərhal istefaya getməlidir.

Vaxt gələcək, siz bu hakimiyyətin xalqı hansı vəziyyətə saldığını görəcəksiniz. Onlar getməyəcək, onları qovmaq lazımdır". Balasanyan Paşinyanı hakimiyyətə Qərbdəki "məşhur mərkəzlər"in gətirdiyini bildirib. Onun ümumiyyətlə nə etmək istədiyini başa düşmək olmur. Hazırda bütün proseslər Bakının ssenarisinə uyğun gerçəkləşir. Paşinyanın Azərbaycan hakimiyyəti qarşısında acizliyi artıq açıq-aydın görünür. Belə getsə, mən və mənim ardımca gedəcək insanlar rəsmi İrəvana qarşı çıxacaq". Belə yanaşma ermənilər üçün parçalanma deməkdir və Qarabağ məsələsində Azərbaycanın lehinə işləyir". İndilikdə görünən budur ki, dərinləşən ziddiyyət Qarabağ münaqişəsinin gedişinə mütləq şəkildə təsirini göstərəcək.

*Tahir TAĞIYEV*

**Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyilə çap olunur.**

# Cenevrədən sonra yeni vəziyyət - qondarma "DQR"də 29 mart "prezident və parlament seçkilərini" dayandırmaq üsulu...

**Məlum olduğu kimi, erməni işğalı altında olan Dağlıq Qarabağda separatçı rejim martın 29-da qondarma "parlament və prezident seçkiləri" keçirməyə hazırlaşır. Dağlıq Qarabağ işğal ediləndən sonra bənzər qondarma "seçkilər" dəfələrlə keçirilib.**

*”Azərbaycan tərəfi təkcə diplomatik deyil, eyni zamanda, hərbi müstəvidə Ermənistana təzyiq etməlidir”*

**Məhəmməd Əsədullazadə:** *”Həmsədrlər bununla bağlı Ermənistana təzyiq göstərsə, separatçı qurumda qondarma ”seçkilərin” keçirilməsi təxirə salına bilər”*




Ancaq həmin "seçkiləri" heç bir dövlət, beynəlxalq təşkilat tanımayıb. Heç şübhəsiz ki, bu dəfə də qondarma "seçkilər" dünya ictimaiyyəti tərəfindən tanınmayacaq.

Ancaq onu da nəzərə almaq lazımdır ki, bu dəfə vəziyyət və situasiya fərqlidir. Məsələ ondadır ki, bu günlərdə Azərbaycan və Ermənistan Xarici İşlər nazirləri Cenevrədə bir araya gələrək münaqişənin tənzimlənməsi ilə bağlı danışıqlar aparıblar. Aparılan substantiv danışıqlar iki gün davam edib və tərəflər bir sıra məqamları müzakirə ediblər. Yeni substantiv danışıqlar getdiyi Cenevrə görüşü başqa vəziyyət yaradıb. Belə vəziyyətdə "DQR"də qondarma "seçkilərin" keçirilməsi aparılan danışıqları poza bilər. Bu baxımdan ola bilərmi ki, Qarabağdakı bu qondarma "seçkilərin" dayandırılması məsələsi tələb kimi fəallaşdırılsın? Belə bir ehtimalı ekspertlər necə dəyərləndirirlər?

Sözügedən məsələni "Bakı-Xəbər"ə şərh edən politoloq Məhəmməd Əsədullazadənin fikrincə, həmsədrlər bununla bağlı Ermənistana təzyiq göstərsə, separatçı qurumda qondarma "seçkilərin" keçirilməsi təxirə salına bilər: "Cenevrədə başlanan və ATƏT-in Minsk Qrupunun həmsədrlərinin iştirakı ilə keçirilən Qarabağ danışıqlarını növbəti dəfə Ermənistan tərəfi pozmağa çalışır. Ermənistanın məhz martın 29-da Azərbaycanın işğal olunmuş ərazilərində keçirəcəyi qondarma "seçkilər" buna hesablanıb. Heç bir beynəlxalq təşkilat tərəfindən tanınmayan bu "seçkiləri" keçirməklə İrəvan, bir növ, danışıqları uzatmağa çalışır. Hesab edirəm ki, Azərbaycan tərəfi Minsk Qrupunun həmsədrləri qarşısında bu məsələni qaldırmalı və danışıqlar prosesində belə qanunsuzluqlara yol verilməməsini tələb etməlidir. Düşünürəm ki, Ermənistan heç də Cenevrə danışıqlarının müsbət istiqamətdə irəliləyişində maraqlı deyil.

Ona görə də Azərbaycan tərəfi təkcə diplomatik deyil, eyni zamanda, hərbi müstəvidə Ermənistana təzyiq etməlidir. Fikrimcə, Azərbaycanın bu addımları Ermənistanın bu avantüralarının qarşısını ala bilər. Nəticədə proseslər lehimizə işləyəcək".

***Vidadi ORDAHALLI***

# Ermənilərin "köçkünlərə mənzil-mənzil oyunu" - Paşinyan "boş ciblə" 2008-ci ildən dayanmış prosesi necə bərpa edib?!...

**Erməni mətbuatı iddia edir ki, guya ölkədəki qaçqınlar mənzillə təmin ediləcək. Bunu onunla əsaslandırmağa çalışırlar ki, Ermənistan hökuməti 1988-1992-ci illərdə Azərbaycanı tərk etmiş qaçqın ailələrinə mənzil sertifikatı vermək proqramını bərpa edib.**




**Əli Orucov:** *”Spitak zəlzələsi zamanı evsiz qalan erməniləri evlə təmin edə bilməyən Ermənistan hökuməti qaçqınları necə evlə təmin edəcək?”*

Artıq bununla bağlı qərar verilib və 112 ailə qısa müddətdə mənzillə təmin ediləcək. Sonrakı mərhələdə isə digərləri mənzilə sahib olacaqlar.

Ərazi İdarəetmə və İnfrastruktur Nazirliyinin Miqrasiya Xidməti rəhbərinin müavini İrina Davtyan jurnalistlərə proqramın təfərrüatları və sertifikat üçün müraciət qaydaları barədə məlumat verib. Onun sözlərinə görə, 2013-cü ilin məlumatlarına əsasən, 895 qaçqın ailəsi evsizdir. Onlardan 641-i İrəvanda, 254-ü isə bölgələrdədir. Böyük maliyyə mənbələri nəzərə alınmaqla problemi mərhələli və prioritet olaraq müxtəlif alt proqramlarla həll etmək qərara alınıb. Noyabrın 21-də keçirilən iclasda hökumət 2008-ci ildə dondurulmuş 112 qaçqın ailəsinə mənzil vermək üçün sertifikat vermə proqramını bərpa etmək qərarına gəlib. Bu məqsədlə büdcədən 1,5 milyard dram (3.1 milyon dollardan çox) ayrılacaq.

Davtyan qeyd edib ki, qaçqınlara mənzil verilməsi qaydası ilə bağlı qərar 2004-cü ildə verilib. 2005-2008-ci illərdə bununla bağlı guya hansısa addımlar atılıb. 2008-ci ildəki maliyyə böhranı ilə əlaqədar olaraq proqram dayandırılıb. Onun sözlərinə görə, yataqxanalarda və ya müvəqqəti sığınacaqlarda, məktəblərdə, uşaq bağçalarında və ya otellərdə 30 ildən çox müddətdə yaşayan insanlar üçün öz mənzillərinə sahib olmaq çox vacibdir.

Açıq-aydın görünür ki, qaçqınların mənzillə təmin ediləcəyi ilə bağlı deyilənlər Ermənistan hökumətinin yeni oyunudur. Ən azından ona görə ki, Ermənistan hökumətinin bunu həyata keçirmək üçün maliyyə imkanı yoxdur. Digər tərəfdən, erməni rəsmisi sözügedən proqramın konkret hansı mənbələr hesabına maliyyələşdiriləcəyini açıqlamayıb. Belə olan halda, uzun illər dayandırılmış proqram hansı vəsait hesabına maliyyələşdiriləcək? Deməli, bu, Paşinyan hakimiyyətinin növbəti blefidir və bundan təbliğat məqsədi üçün istifadə etmək istəyirlər.

*”...bu deyilənlərin heç bir real əsası yoxdur”*

Məsələyə münasibət bildirən AMİP funksioneri Əli Orucovun sözlərinə görə, Ermənistanın ölkədəki qaçqınları mənzillə təmin etmək imkanı olduqca məhduddur: "Deyərdim ki, yox dərəcəsindədir. Çünki 1988-ci ildə Spitakda baş verən zəlzələ zamanı evsiz qalan ermənilər hələ də mənzillə təmin edilməyiblər. Bu barədə xarici media orqanlarında, hətta yerli erməni KİV-ində dəfələrlə məlumatlar yayılıb. Hansı ki, sözügedən zəlzələ ilə bağlı Ermənistana böyük yardımlar edildi. Erməni lobbisi xətti ilə maliyyə vəsaitləri köçürüldü. Ancaq Ermənistanda hakimiyyətdə olan qüvvələr bu vəsaitləri mənimsədilər. Ona görə də Spitak zəlzələsi zamanı evsiz qalan erməniləri evlə təmin edə bilməyən Ermənistan hökuməti qaçqınları necə evlə təmin edəcək? Başqa bir tərəfdən, Paşinyan hakimiyyətə gələndən sonra Ermənistan iqtisadiyyatında köklü nəsə baş verməyib.

O mənada ki, ölkənin maliyyə resursları əsaslı şəkildə artmayıb. Deyəsən ki, bu imkanlar hesabına mənzillər tikiləcək. Ermənistanın builki dövlət büdcəsi 3,5 milyard dollardır. Mənzil tikintisi böyük vəsait tələb edir. Azərbaycan bu istiqamətdə böyük işlərə imza atıb. Bu da onunla əlaqədardır ki, Azərbaycan böyük neft gəlirlərinə malikdir. Ermənistanın nəyi var? Ona görə də bu deyilənlərin heç bir real əsası yoxdur. Ermənistan hakimiyyəti bundan təbliğat məqsədi üçün istifadə edir. Bununla ölkə ictimaiyyətinin başını qatırlar və cəmiyyətdə reytinq qazanmağa çalışırlar".

***Vidadi ORDAHALLI***

# Naxçıvan iddialarının xülya olduğunu Ermənistanda kütləvi anlamağa başlayırlar - konkret fakt...

**Artıq erməni KİV-ində Ermənistan hakimiyyətinin istəklərini siyasi fantaziya janrında çəkilən filmlərlə əlaqələndirməyə başlayıblar. Yazılan bəzi məqalələrdə çox ironik tərzdə izah olunur ki, Ermənistanın başqalarının hesabına özgə torpaqları əldə etmək cəhdləri artıq fantaziya kimi görünür.**




## *Daşdəmir Əliyev: "Bəli, bu gün ermənilər Naxçıvana olan iddiadan əl çəkiblər və hətta oradan ehtiyat etməyə başlayıblar"*

Bildirilir ki, bir vaxtlar ermənilər Türkiyənin parçalanacağı və Şərqi Anadolu torpaqlarının Ermənistana birləşdiriləcəyi kimi xülyalarla yaşayırdılar. Ancaq dünyada çox ciddi proseslər, müharibələr oldu və bitdi, lakin ermənilər istəklərinə nail ola bilmədilər. Hətta bu proqnozların saxta "soyqırımın 100 illiyi"nə kimi reallaşacağını da bildirənlər olub. Məqalədə qeyd olunur ki, sonra erməni təbliğat maşını asanlıqla Naxçıvanı əldə edə biləcəyinə dair rəy formalaşdırmağa başladı. Əsas kimi Naxçıvanın Azərbaycanın digər ərazilərindən təcrid olunması və ən əsası İran və Türkiyə sərhədinin olması göstərildi. Ermənilərin iddialarına görə, Kreml keçmiş SSRİ sərhədlərinə özünün nəzarət etməsini istəyir. Təsadüfi deyil ki, Ermənistan "müstəqil" ölkə olsada, onun Türkiyə və İranla olan sərhədlərini rus sərhədçiləri qoruyurlar. Buna görə də Naxçıvanın ermənilərin əli ilə Ermənistanın nəzarətinə götürüləcəyini həm də Kremlin marağı kimi yozurdular. Erməni ictimai rəyi artıq Naxçıvanı özləri üçün yem yox, böyük təhlükə kimi qəbul etməyə başlayıb. Son Günnüt əməliyyatından sonra Azərbaycan Ordusu məhz Naxçıvandan Ermənistan ərazisində olan önəmli strateji ərazilərə nəzarət edə bilir. Artıq Naxçıvanda elə silahlar var ki, həm onların parametrləri, həm də məsafədəki yaxınlıq məhz oradan İrəvandakı istənilən nöqtəni hədəfə almağa qadirdir. Bütün bunlar onu sübut edirmi ki, ermənilər Naxçıvana olan iddialarının tamamilə mənasız söhbət olduğunu anlayıblar?

Hərbi-siyasi ekspert, ehtiyatda olan polkovnik-leytenant Daşdəmir Əliyev "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, ermənilərin məlum istiqamətdə olan məkrləri bitib-tükənən deyil: "Əvvəlcə həmin millətin bir tarixinə baxaq. Onlar harada yaşayıblarsa, xislətlərinə görə həmin ərazilərdən qovulublar. Hazırda dövlət yaratdıqları ərazi də onlara məxsus deyil. Buna görə də hara ayaqları dəyibsə, ora qarşı ərazi iddiaları qaldırmağa başlayıblar. Bizimlə yaxın ərazidə məskunlaşdıqları üçün, onların məkrinə daha çox tuş gəlmişik və bunun da acı nəticələri göz qabağındadır. Ermənilərin "Böyük Ermənistan" deyilən bir doktrinası var. Həmin xəritəyə nəzər salanda görünür ki, onlar İran, Türkiyə, Gürcüstan, hətta Rusiyaya qarşı da açıq ərazi iddiaları ortaya qoyurlar. Bir sözlə, dənizdən-dənizə deyilən ərazidə böyük bir ölkə yaratmaq istəyirlər. Onların hətta müdafiə naziri, yəni rəsmi şəxsi belə yeni ərazilərin zəbtinin mümkünlüyündən danışıb. Yəni Ermənistanın harasa ərazi iddiası irəli sürməsi təsadüfi deyil. Naxçıvanla bağlı onların iddiaları hər zaman olub. Bunun üçün də əllərindən nə gəlibsə, hamısını ediblər. Hətta tarixi saxtalaşdıraraq həmin ərazinin guya özlərinə məxsus olduğunu deyirlər. Sonra isə bunu hərbi yolla etməyə çalışdılar. 1990-cı ildən başlayaraq belə cəhdlər oldu. Nəticədə Sədərək və digər istiqamətdə ciddi müqavimətlə üzləşdilər. Onların həm siyasi, həm də hərbi həmlələri nəticə vermədi. Bu gün Naxçıvanda çox güclü Ümumqoşun Ordusu var. Ən müasir silahlarla təchiz olunan həmin ordu nəinki müdafiə olunmağa, eləcə də Ermənistan ərazisindəki istənilən hədəfi məhv etməyə qadirdir.

**Biz bunu 2018-ci ildə baş tutan Günnüt əməliyyatı zamanı gördük. Bəli, bu gün ermənilər Naxçıvana olan iddiadan əl çəkiblər və hətta oradan ehtiyat etməyə başlayıblar. Naxçıvan nəinki Azərbaycan, eləcə də bütün Türk dünyası üçün mühüm strateji önəmə malikdir. Türkiyəni digər türkdilli ölkələrlə birləşdirən bir körpüdür. Naxçıvanın təhlükəsizliyi həm də beynəlxalq sənədlərdə öz əksini tapıb. 1921-ci ildə imzalanan Qars müqaviləsinin şərtlərinə görə, Naxçıvanın təhlükəsizliyinin qarantorluğu ilə bağlı məsələdə həm də Türkiyə söz haqqına sahibdir".**

***Məhəmmədəli QƏRİBLİ***

# Paşinyanşünas təbliğatın yeni "faktı" - Ermənistan "turizmə görə Azərbaycanı, Gürcüstanı, hətta Türkiyəni" üstələyirmiş...

**Erməni mətbuatı yazır ki, Ümumdünya Turizm Təşkilatının (UNWTO) məlumatına əsasən, Ermənistan dünyanın ən sürətli inkişaf edən turizm istiqamətlərindəndir. UNWTO "Turizm barometri"nin məlumatlarına əsasən, bununla bağlı ən sürətli inkişaf edən istiqamətlərin sırasında Ermənistan 14.4 faiz artımla 12-cidir.**



## *Rəsul Cahangirli: "Ermənistanın hesabatda 12-ci olması..."*

Ümumdünya Turizm Təşkilatının hesabatına əsasən, ən çox artım 40.2 faizlə Myanmada qeydə alınıb. Qonşulardan yalnız İran turizm artımında Ermənistanı qabaqlayıb. Adıçəkilən ölkə 27.9 faiz artımla dünyada üçüncü yeri tutur. Erməni mətbuatı böyük sevinclə qeyd edir ki, Avrasiya İqtisadi İttifaqı ölkələri arasında Ermənistan liderdir. Ermənistandan sonra Qazaxıstandır, 10 faiz artımla 20-ci yerdə qərarlaşıb.

Daha sonra qeyd edilib ki, Türkiyə və Azərbaycan turizm artımı siyahısında Ermənistandan geridə qalaraq 14-11.4% artımla müvafiq olaraq 13-cü və 17-ci yerləri tuturlar. Gürcüstan isə heç 20-likdə yer almayıb.

Bir sözlə, Ermənistan mətbuatı məlum hesabatdan çıxış edərək belə rəy yaratmağa çalışır ki, guya Ermənistan turizmin inkişafına görə nəinki Azərbaycan və Gürcüstanı, hətta Türkiyə kimi ölkəni üstələyir. Guya Paşinyan hakimiyyətə gələndən sonra ölkə elə sürətlə inkişaf edib ki, xarici ölkələrdən bura turist axını artıb.

Məsələyə münasibət bildirən ekspert Rəsul Cahangirlinin fikrincə, sözügedən hesabat o demək deyil ki, Ermənistan turizmin cəlbediciliyinə və inkişafına görə Türkiyədən, Gürcüstandan, Azərbaycandan üstün mövqedədir: "Əvvəla dünyanın əsas turizm istiqamətləri sürətlə dəyişir. Bu, zaman-zaman belə olub. Ümumdünya Turizm Təşkilatının son hesabatına əsasən, ötən ilin ən çox turist qəbul edən ölkəsi Fransa olsa da, digər populyar istiqamətlərdə ciddi azalma müşahidə olunub. Yeni və daha cəlbedici istiqamətlər yaranıb və bunlardan biri də Azərbaycandır. Bunun

*"Sadəcə, ermənilər hesabatdan təbliğat məqsədi üçün istifadə edərək müəyyən görüntü yaradırlar"*

nəticəsidir ki, Azərbaycan yeni populyarlaşan 20 ölkədən biridir. Ölkəyə gələn turistlərin sayı 11,4 faiz artıb. Bu il Azərbaycana gələn turistlərin sayının daha da artacağı gözlənir. Ermənistanın hesabatda 12-ci olması o demək deyil ki, bu ölkədə qonşu dövlətlərlə müqayisədə turizm daha yaxşı inkişaf edib. Təbii ki, belə deyil. Başqa bir tərəfdən, Ermənistana ötən il gələn turistlər bu il ora getməyəcək. Çünki orada turistlərə göstərilən xidmət səviyyəsi Türkiyə, Gürcüstan və Azərbaycanla müqayisədə aşağıdır. Sadəcə, ermənilər hesabatdan təbliğat məqsədi üçün istifadə edərək müəyyən görüntü yaradırlar. Müqayisə üçün qeyd edim ki, 2019-cu ildə Azərbaycana dünyanın 193 ölkəsindən 3 milyon 170,4 min turist gəlib. Bu da 2018-ci illə müqayisədə 11,3 faiz çoxdur. Ötən il Azərbaycana gələn turistlər 43 milyard manatdan çox vəsait xərcləyiblər. Bunun da obyektiv səbəbləri var. Prezident İlham Əliyevin turizmin inkişafı ilə bağlı verdiyi qərarlar bu sahənin inkişafına güclü stimul verib. Eyni zamanda, ölkədə mövcud olan sabitlik, əminamanlıq, ictimai asayiş də bunun əsas səbəblərindəndir. Son illər bu sahənin inkişafına göstərilən diqqət və qayğı nəticəsində Azərbaycanda geniş turizm infrastrukturu yaradılıb. Bu baxımdan, ermənilərin müqayisələri və saxta görüntü yaratmaq cəhdləri nəyisə dəyişə bilməyəcək".

***Vidadi ORDAHALLI***

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**



# Dağlıq Qarabağın azərbaycanlı icması ilə bağlı durum Ermənistan üçün yeni şok effekti yaradır

**Son dövrlərdə işğalçı Ermənistanda ciddi narahatlıq predmetinə çevrilən məqamlardan biri də Dağlıq Qarabağ bölgəsinin azərbaycanlı icması, onun maraqlı tərəf kimi danışıqlar prosesində iştirakıdır. Ermənistan hər vəchlə buna qarşı çıxsa da, hadisələrin gedişi bu dəfə də düşmən ölkənin məğlub durumda olacağını göstərir.**

Bu barədə danışmazdan öncə qeyd edək ki, xüsusən xarici işlər nazirlərinin məlum Cenevrə görüşündən sonra Ermənistanda icmalarla bağlı narahatlıq artan xətt üzrə inkişaf edir. Ermənistan hakimiyyətinin nümayəndələri Dağlıq Qarabağ bölgəsində iki icmanın mövcud olmadığı haqqında əsası olmayan fikirlər səsləndirməkdə davam edir. Amma faktdır ki, 24 mart 1992-ci il tarixində ATƏT-in Helsinki Nazirlər Şurasının sənədində əks olunan Dağlıq Qarabağın seçkili və digər nümayəndələri, məhz Azərbaycanın Dağlıq Qarabağ bölgəsinin hər iki, yeni erməni və azərbaycanlı icmalarını nəzərdə tutur və onlar maraqlı tərəflər qismində qeyd olunur. Bu sənəddə Dağlıq Qarabağa ayrıca tərəf kimi istinad edilmir. Bu faktın qabardılması Ermənistanda indi narazılıqla qarşılanır. Lakin erməni politoloq Yervand Bozoyan İrəvanın narazılığı və narahatlığının artıq hansısa önəm kəsb etmədiyini bildirir: "Hazırkı vəziyyətə əsasən, Qarabağ rejimini danışıqlar masasına daxil etmək istəyi Qarabağın azərbaycanlı icmasinin nümayəndə heyəti problemi ideyasını yenidən canlandıra bilər. Burada təkcə danışıqlar formatı yox, həmçinin məzmun da vacibdir. Cəmiyyətimizin diskussiyası xəstə xarakterinə malikdir, təkcə danışıqların məzmunu ilə deyil, həmçinin onun forması ilə maraqlanır. Danışıqlar masası ətrafında nə baş verməsi barədə cəmiyyətimizin adekvat təsəvvürləri yoxdur. Heç kim izah etməyə maraqlı deyil ki, ümumiyyətlə danışıqlar masası ətrafında nə baş verir". Ekspert bildirir ki, Ermənistanın azərbaycanlı icmasının maraqlı tərəf kimi danışıqlarda iştirakını əngəlləməsi, bu xüsusda verdiyi açıqlamaların artıq əhəmiyyəti yoxdur.

Xatırladaq ki, qeyd olunan məsələ Ermənistan XİN-in sözçüsü Anna Nağdalyan tərəfindən Cenevrə danışıqlarından sonra yenidən gündəmə gətirildi. Amma onun ddeiklərinin əsassızlığı Dağlıq Qarabağ bölgəsinin azərbaycanlı icmasının rəhbəri Tural Gəncəliyev tərəfindən faktlar əsasında yenidən alt-üst edildi:"Bu günlərdə ATƏT-in Minsk Qrupunun vasitəçiliyi ilə Cenevrədə Azərbaycan və Ermənistan xarici işlər nazirləri arasında danışıqlar baş tutdu. Görüşdən dərhal sonra Ermənistan XİN-in sözçüsü Anna Nağdalyan sülh prosesinə "Artsax xalqının seçilmiş nümayəndələrinin" cəlb ediləbiləcəyi kimi təxribat xarakterli fikir səsləndirməklə danışıqlara kölgə salmağa cəhd etdi. Təəssüf hissi ilə qeyd edirəm ki, Ermənistan tərəfi aparılan danışıqların həssas məqamlarında bu cür təxribatçı metodlardan istifadə edərək münaqişənin sülh yolu ilə tənzimlənməsinə həmişə əngəllər yaradır. "Artsax xalqı" deyilən anlayış yoxdur, Dağlıq Qarabağda yaşayan ermənilər Azərbaycan xalqının tərkib hissəsidir və Azərbaycan vətəndaşlarıdır. Heç bir əsası olmayan "Artsax xalqı" anlayışına dəfələrlə aydınlıq gətirilsə də, Ermənistan hər dəfə bu məsələni gündəmə gətirməklə özünün qeyri-konstruktiv mövqeyini ortaya qoymuş olur və dünya ictimaiyyəti tərəfindən qınaq obyektinə çevrilməkdən çəkinmir. Ermənistanın hakim dairələrinə bu məsələdə ən tutarlı cavabı ötən il Azərbaycan Prezidenti İlham Əliyev Soçi şəhərində "Valday" beynəlxalq klubunun sessiyasında verdi və bəyan etdi ki, "Dağlıq Qarabağ xalqı" məfhumu yoxdur, Dağlıq Qarabağın əhalisi var". Dağlıq Qarabağ əhalisinin bərabərhüquqlu azərbaycanlı və erməni icmalarından ibarət olmasına dair mövqenin ATƏT-in Minsk Qrupunun həmsədrlərinin keçən il verdiyi bəyanatlarda və Rusiya xarici işlər naziri Sergey Lavrovun Bakıya son səfəri zamanı etdiyi açıqlamasında təkrarlandığının şahidi olduq. Ermənistanın rəsmi dairələrinin əsassız bəyanatları Azərbaycanın beynəlxalq səviyyədə tanınmış sərhədləri çərçivəsində Dağlıq Qarabağın azərbaycanlı və erməni icmalarının birgə yaşayışının qarşısını ala bilməyəcək. Biz öz torpaqlarımıza geri döncəyik, pozulmuş hüquqlarımızı və dağıdılmış mülklərimizi bərpa edəcəyik". Elə ekspertlər də bildirir ki, Ermənistan hakimiyyəti Dağlıq Qarabağ və digər işğal olunmuş ərazilərindən qovulmuş yüz minlərlə azərbaycanlının mövcudluğunu inkar etməzsə, iki icmanın bərabərhüquqlu icma olaraq Azərbaycanın beynəlxalq səviyyədə tanınmış sərhədləri çərçivəsində sülh şəraitində birgə yaşamasına mane olmazsa, münaqişənin sülh yolu ilə həlli mümkün ola bilər. Məsələyə münasibət bildirən erməni ekspert Narek Minasyan bu xüsusda qeyd edir: "Azərbaycan tərəfi Dağlıq Qarabağın azərbaycanlı icması ilə bağlı Azərbaycan tezisini beynəlxalq platformalarda aktiv şəkildə dövriyyəyə buraxmağa çalışır. Azərbaycan İrəvanın Qarabağı danışıqlar masasına qaytarmaq tələbinə əks olaraq icma modelini aktiv şəkildə ön plana çəkir. Ötən il Avropa Parlamentinin bütün deputatlarına Dağlıq Qarabağın azərbaycanlı icmasından məktublar göndərilib, ABŞ, Fransa səfirləri Dağlıq Qarabağın azərbaycanlı icmasının rəhbəri ilə görüşlər keçirir. Bunlar icma məsələsində Azərbaycanın istədiklərinin reallaşması və danışıqlarda Bakının daha bir üstünlüyüdür". Qeyd edək ki, daha əvvəl bu xüsusda Ermənistan Milli Təhlükəsizlik Xidmətinin keçmiş direktoru David Şahnazaryan da narahatlığını ifadə etmişdi: "Əsas məsələlərdən biri Dağlıq Qarabağda erməni və azərbaycanlılar arasında birgə yaşayış zonalarının yaradılmasıdır. İlk növbədə Şuşa məsələsi, eləcə də əsaslı danışıqların intensivləşdirilməsi müzakirə edilir. Məhz bu kontekstdə Cenevrə danışıqları ilə paralel olaraq ABŞ-ın Azərbaycandakı səfiri Erl Litsenberger öz təşəbbüsü ilə Dağlıq Qarabağın azərbaycanlı icmasının rəhbəri Tural Gəncəliyevlə görüşüb". Hesab olunur ki, əslində, Dağlıq Qarabağın azərbaycanlı icması, ümumiyyətlə, bundan sonra danışıqlarda maraqlı tərəf kimi daha fəal mövqe nümayiş etdirəcək. Bu fonda onların Dağlıq Qarabağın erməni icması ilə təmasları da mümkün sayılır. Rusiyanın hərbi eksperti İqor Korotçenko isə bildirir ki, əslində, Qarabağın erməni icmasının əvvəlki qaydada Azərbaycanın tərkibində bu ölkənin vətəndaşları kimi yaşaması onların öz maraqlarına da uyğun gələrdi. O, sadəcə, Ermənistan siyasi rəhbərliyinin Qarabağla bağlı məsuliyyətsiz mövqeyinin uzun illərdir aparılan danışıqlar prosesinə böyük ziyan vurduğunu deyib: "Bu, uzaqgörən siyasət deyil. Çünki diplomatik yolla aparılan danışıqları pozur. Gec-tez Ermənistan Azərbaycan torpaqlarından qoşunlarını çıxarmalı olacaq. Heç olmasa, ilkin olaraq ətraf 7 rayonu boşaltmalıdırlar. Doğma yurdlarından, evlərindən qovulan azərbaycanlı əhali Dağlıq Qarabağa qayıtmalıdır. Bütün bunlardan sonra Dağlıq Qarabağda referendum keçirilməsi mümkündür. Bu referendum isə Dağlıq Qarabağa xüsusi statusun verilməsi ilə bağlı keçirilə bilər. Dağlıq Qarabağın mübahisəsiz Azərbaycanın ərazisi hüdudlarında olması şərtilə bu regiona xüsusi status verilməsi mümkündür. Bütün bunlardan sonra Azərbaycan Dağlıq Qarabağa investisiya yatıra bilər. Əminəm ki, Azərbaycanın tərkibində olan Dağlıq Qarabağda yaşayacaq ermənilər Ermənistanda yaşayan ermənilərdən daha yaxşı həyat səviyyəsinə malik olarlar".

İndilikdə isə görünən budur ki, İrəvan, Qarabağ münaqişəsi ilə bağlı danışıqların ruhuna və formatına zidd olaraq, qondarma rejimin nümayəndələrinin danışıqlara cəlb edilməsi ilə bağlı təxribat xarakterli mövqeyindən əl çəkmir. Dağlıq Qarabağ bölgəsinin azərbaycanlı və erməni icmalarının bərabərhüquqlu icmalar olduğunu İrəvan hələ də qəbul etməkdə çətinlik çəkir. Halbuki, bu məsələ birbaşa beynəlxalq hüquqla təsbit olunub. Amma erməni politoloq Anjela Əlibəyova İrəvanın bu xüsusda mövqeyinin sarsılmaqda olduğunu deyir. O bildirir ki, indi Ermənistan və Azərbaycan müəyyən bir sənəd ətrafında genişlənəcək danışıqlar mərhələsindədir: " Ermənistan və Azərbaycan xarici işlər nazirləri arasında Cenevrədəki son danışıqlardan əvvəl tərəflər hazırlıq və texniki mərhələlərdə idisə, indi həqiqətən bir sənəd ətrafında genişlənəcək danışıqlar mərhələsindəyik. Ermənistan tərəfinin açıqlamasında "təkliflərin verilməsi, qərar qəbul edilməsi və müzakirə olunmasının bəzi vaxtları" anlayışlarına rast gəlinir. Buna görə daha intensiv danışıqlar prosesinə giririk. 2020-ci ildə prosesin sürətlənəcəyini və həmsədrlərin tərəflərə təzyiqi artıracağını gözləmək olar. Amma bu təzyiq daha çox Ermənistana olacaq.

Xüsusən də son dövrlərdə bu, icma məsələsində özünü göstərir. Azərbaycan artıq həmsədrlərə Dağlıq Qarabağın azərbaycanlı icmasını qəbul etdirib və həmsədrlər Ermənistanın da qəbulu üçün təzyiqləri artıracaq". O, 2020-ci ildə kifayət qədər gərgin danışıqlar prosesinin gözlənildiyinə inandığını söyləyib. Rəsmi Bakının mövqeyi isə budur ki, Dağlıq Qarabağın azərbaycanlı və erməni icmaları ölkəmizin beynəlxalq səviyyədə tanınmış sərhədləri, suverenliyi və ərazi bütövlüyü çərçivəsində yenidən sülh şəraitində birgə yaşamağa qadirdir. Azərbaycan tərəfi bunun üçün müvafiq addımlar atmağa hazır olduğunu bəyan edir. Ermənistan və erməni icmasının bunu düzgün dəyərləndirməsi isə sadəcə münaqişənin dinc müstəvidə həll prosesini əhəmiyyətli dərəcədə sürətləndirə bilər.

***Tahir TAĞIYEV***

**Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyilə çap olunur.**

# Məmurlar kasıb təbəqə üçün nəzərdə tutulmuş iş yerlərinin pulunu necə mənimsəyir...

**Ölkəmizdə aztəminatlı ailələrin sosial müdafiəsinin gücləndirilməsi üçün dövlət tərəfindən həyata keçirilən proqramların hər biri böyük əhəmiyyətə malikdir. Lakin sosial yardımların, eləcə də kasıblar üçün nəzərdə tutulan iş yerlərinin pulunun bəzi məmurlar tərəfindən mənimsənilməsi faktı diqqəti çəkir.**

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev keçirdiyi əvvəlki müşavirələrdə də, son müşavirədə də bu məsələyə toxunub.

Dövlət başçısı "Azərbaycan Respublikası regionlarının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın icrasının birinci ilinin yekunlarına həsr olunan konfransda bir sıra ciddi məsələlərdən danışıb: "Sosial layihələr arasında ödənişli ictimai iş yerlərinin yaradılması da var. Bu da mənim təşəbbüsümlə irəli sürülmüş məsələdir, o vaxt ki, ölkəmizdə işsizlik bir qədər artmışdı. Onun da səbəbi o idi ki, neftin qiyməti 4 dəfə aşağı düşdü, biz məcbur olub investisiya xərclərimizi ixtisar etdik... Mən giriş sözümdə dedim, valyuta ehtiyatlarımızı hətta bizim üçün ən ağır illərdə artıra bilmişik. Amma investisiya xərclərini azaltdıq və beləliklə, bu layihələrdə iştirakı nəzərdə tutulan insanlar işsiz qaldılar. Ona görə mənim göstərişimlə ödənişli ictimai iş yerləri yaradıldı. Ancaq əfsuslar olsun ki, bu sahədə bölgələrdə pozuntulara yol verildi və bu pozuntulara yol verən şəxslər cəzalandırıldı. Əgər bu biabırçı faktlar təkrarlanarsa, heç kim cəzadan yaxa qurtara bilməyəcək. Çünki kasıb təbəqə üçün nəzərdə tutulan iş yerlərinin pulunu mənimsəmək böyük vicdansızlıqdır. Ona görə çox ciddi nəzarət var. Əminəm ki, belə hallar təkrarlanmayacaq. Amma yenə də ciddi nəzarət olmalıdır. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə tapşırıq verilib ki, bütün iş yerləri qeydiyyatdan keçsin və nəzarət güclü olsun. Baxmayaraq ki, işsizliklə bağlı vəziyyət ötən il yenə də böyük dərəcədə yaxşılaşdı, amma əhali artır. Biz bunu nəzərə almalıyıq. Ona görə bu il də dövlət xətti ilə təxminən 40 minə yaxın iş yeri yaradılacaq".

Siyasi şərhçi Azər Həsrət "Bakı-Xəbər"ə bildirdi ki, bir sıra məmurların əhalinin kasıb təbəqəsinə zülm etməsi Prezidentin diqqətindən yayınmayıb və xalqın malına göz dikən məmurlar cəzalandırılıblar: "Əlbəttə ki, cənab Prezident bu neqativ hərəkətləri edən məmurların əməllərini tənqid etməklə onların əməllərinə qiymət verdi və bildirdi ki, kasıb təbəqə üçün nəzərdə tutulan iş yerlərinin pulunu mənimsəmək böyük vicdansızlıqdır. Bu həm vicdansızlıqdır, həm də böyük qansızlıqdır. Çünki dövlət elə bir kateqoriyadan olan insanlar üçün bu vəsaiti ayırır ki, həmin insanlar, ən azından, ac qalmasınlar, öz sosial problemlərini minimal səviyyədə də olsa ödəsinlər, həll etsinlər. Amma bir çox vicdansız məmur xüsusən də rayon yerlərində o pulları vucdansızcasına mənimsəyir. Ağstafa rayonunun keçmiş icra başçısının məhz belə vicdansızlığa, kasıb təbəqə üçün ayrılan iş yerlərinə görə verilən pulu mənimsədiyinə görə həbs edilməsi başqalarına da dərs olmalıdır. O, dövlət tərəfindən vətəndaşlara ayrılan vəsaiti, vətəndaşlara çatacaq maaş kartlarını mənimsədiyi üçün həbs edilib. Bu kimi halların başqa rayonlarda da baş verdiyi haqqında məlumatlar eşidirik. Bir çox məmurun, xüsusən də rayon icra başçılarının, eləcə də onların ətrafındakı şəxslərin, müxtəlif dövlət qurumlarının yerli strukturlarının rəhbərlərinin kasıb təbəqəyə ayrılan vəsaiti mənimsəməsi vəhşiliyin bir nümunəsidir. Bu qeyri-insani, qeyri-humanist bir haldır. Çünki dövlət tərəfindən sosial cəhətdən zəif insanlara ayrılan o vəsait gedib ünvanına çatmalıdır, amma bəzi məmurlar bu vəsaiti vicdansızcasına mənimsəyirlər. Kasıb insanlar üçün iş yerlərinin yaradılması, onlara ayrılan maliyyə vəsaiti Prezidentin vətəndaşa bəslədiyi qayğının təzahürüdür. Amma yerlərdəki məmurlar vicdansızlıq edərək kasıb təbəqə üçün nəzərdə tutulan vəsaiti talayırlar. Ona görə də cənab Prezident bu səviyyədə həmin məsələni qaldırdı. Düşünürəm ki, indən sonra bu kimi əməllərlə məşğul olan adamlara qarşı ciddi ölçü götürülməli və onlar başqaları üçün də görk olacaq şəkildə cəzalandırılmalıdırlar".

***Azər Həsrət:** "Cənab Prezident dövlətin kasıb təbəqəyə ayırdığı vəsaiti qansızcasına mənimsəyən məmurların kimliyini bilir..."*



## "...vəhşiliyin bir nümunəsidir"

**A.Həsrət hesab edir ki, belələrini xalq içində gözdən salmaq və ictimai qınağa məruz qoymaq lazımdır. "Bir dövlət məmuru nə qədər vicdansız, qeyri-humanist olmalıdır ki, kasıb təbəqə üçün ayrılan vəsaiti mənimsəsin. Cənab Prezident dövlətin kasıb təbəqəyə ayırdığı vəsaiti qansızcasına mənimsəyən məmurların kimliyini bilir və onların əməllərini bu şəkildə ifşa edir. Məmurlar bundan nəticə çıxarmalıdırlar ki, sərt cəzadan yaxa qurtara bilsinlər" - deyə A.Həsrət vurğuladı.**

***İradə SARIYEVA***

**Azərbaycan palçıq vulkanlarının sayına görə dünyada birinci yeri tutur. Statistikaya görə, hazırda planetimizdə olan 800 palçıq vulkanından 300-dən çoxu Azərbaycanın şərqində və onunla həmsərhəd Xəzər akvatoriyasında yerləşir.**

*"...turistlər həmin əraziləri görmək istəyirlər, amma ora səfərlərin təşkilində böyük problemlər var"*

# Palçıq vulkanlarımız muzey kimi, ancaq ətrafları bərbad - Prezident prosesi hansı ünvana yönəltdi...

## *Elçin Rüstəmov: "Palçıq vulkanlarının yaxınlığında müalicə obyektlərinin, istirahət məkanlarının yaradılması vacibdir"*

Palçıq vulkanlarının əksəriyyəti Bakı və Abşeron yarımadasında yayılıb və onlardan bəziləri təbiət abidəsi kimi formalaşıb. Bu baxımdan, Azərbaycanı "palçıq vulkanları diyarı" adlandırmaq olar. Bu vulkanlar ölkəmizin təbii sərvəti olmaqla yanaşı, həm də xaricdən turistlərin cəlb olunması, ekoturizmin inkişafı üçün mühüm zəmin yaradır.

Danılmaz faktdır ki, ölkəmizə istirahətə gələnlərin sayı gündən-gündən artır. Turistlərin bir qismi təbiət, bəziləri tarixi məkanlarla maraqlanmağa üstünlük verir. Bu baxımdan, Azərbaycanın palçıq vulkanlarını ziyarət edən turistlərin sayı üstünlük təşkil edir. Turist sayının artması sevindiricidir. Ancaq burada narazılıq yaradan məqam palçıq vulkanlarının ətrafında insanların istirahəti üçün hər hansı bir məkanın olmamasıdır.

Hətta bu məsələyə "Azərbaycan Respublikası regionlarının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın icrasının birinci ilinin yekunlarına həsr olunan konfransda çıxış edən Prezident İlham Əliyev də toxundu.

O qeyd etdi ki, keçən il Yanardağ tamamilə yenidən quruldu, çox gözəl şərait yaradıldı və demək olar ki, Bakıya gələn turistlərin böyük əksəriyyəti oranı ziyarət edir. Bizim palçıq vulkanlarımız var. Amma oraya heç yol da yoxdur:

"Hətta yol olsa belə, oraya gedib, bir stəkan çay içmək üçün yer tapmaq mümkün deyil. Turizm Agentliyinə bu il bu məsələ ilə ciddi məşğul olması ilə bağlı göstəriş verilib. Necə ki, bu gün Yanardağa, yaxud da ki, Qobustana hər kəs gedir, palçıq vulkanlarına da hər kəs gedəcək. Çünki biz palçıq vulkanlarının sayına görə dünyada birinci yerdəyik".

Mütəxəssislər də bildirirlər ki, turistlər hər hansı bir tarixi məkanı



ziyarət etdikdən sonra dincəlmək istəyirlər. Ancaq palçıq vulkanlarının ətrafında turistlərin rahat istirahəti üçün hər hansı bir şərait mövcud deyil.

Turizm sahəsi üzrə ekspert Elçin Rüstəmov bildirdi ki, dünya təcrübəsində palçıq vulkanları yerləşən və əsrarəngiz mənzərəyə malik yerlərə turistləri cəlb etmək üçün turlar təşkil olunur, bu yerlərdə müalicə müəssisələri, kurortlar inşa edilir: "Dünyada "Palçıq vulkanlarının diyarı" kimi tanınan Azərbaycanda da təbiətin xalqımıza bəxş etdiyi bu imkandan yetərincə yararlanmaq üçün lazımi işlər görülür".

**Həmsöhbətimiz onu da əlavə etdi ki, palçıq vulkanlarının ekoturizmdən əlavə, müalicəvi turizmin təşkilində də xüsusi əhəmiyyəti var: "Bu baxımdan, palçıq vulkanlarının yaxınlığında müalicə obyektlərinin, istirahət məkanlarının yaradılması vacibdir. Azərbaycanın təbliği baxımından hazırlanan videosüjetlərdə vulkanlardan geniş istifadə edildiyindən, turistlər həmin əraziləri görmək istəyirlər, amma ora səfərlərin təşkilində böyük problemlər var".**

*Günel CƏLİLOVA*

---

**Çində ötən ilin dekabrından peyda olan və sürətlə yayılan ölümcül koronavirus səbəbindən dünyada tibbi maskaların çatışmazlığı yaranıb. Artıq "Amazon" və "Alibaba" onlayn platformalarında maska satan bir çox mağazada malların tükəndiyi deyilir.**

# Bakı apteklərində spirt və tibbi maskalara tələbat ödənmir - depolar əsas "müqəssir" rolunda...

Çin, Honq Konq və Sinqapurda əhali maska ala bilmək üçün apteklərin qarşısında növbəyə düzülür. Hətta ABŞ-ın San-Fransisko, Orlando kimi bəzi şəhərlərinin sakinləri yerli aptek və dükanlardan maskaların yoxa çıxdığını deyirlər.

Koronavirus təhlükəsi ilə bağlı Azərbaycanda da cavabdeh dövlət orqanları gücləndirilmiş iş rejiminə keçiblər. Prezident İlham Əliyevin tapşırığı ilə Baş nazir Əli Əsədov aidiyyəti dövlət strukturları rəhbərlərinin iştirakı ilə müşavirə keçirib, epidemiyaya qarşı qabaqlayıcı tədbirlərin görülməsi haqda qərar qəbul edilib.

Ölkəmizdə də tibbi maskalara və hər hansı bir virusdan qorunmaq üçün spirtə olan tələbatın artıb-artmadığını öyrənmək məqsədilə Bakının bəzi apteklərində müşahidə aparıb, satıcılarla söhbətləşdik. Məlum oldu ki, xüsusilə son bir həftədə paytaxt apteklərində qoruyucu maska satışı bir neçə dəfə artıb. Uşaqları məktəbə gedən valideynlər də bu yolla övladlarını virusdan qorumağa çalışırlar.

Satıcılar bildirirlər ki, aptekə girən müştərilərin xeyli hissəsi maska soruşur: "Hətta rəngi də fərq etmir, ağ, qara, yaşıl, nə rəng olsa alırlar. Amma tələbata baxmayaraq, qiymətdə dəyişiklik yoxdur, tibbi maskanın biri 10 qəpiyə satılır.

Qeyd etdiyim kimi, apteklərə tibbi spirt və maska limitlə verilir. Tibbi maska və spirtin əvvəlki qiyməti ilə indikində heç bir fərq yoxdur. Yenə də tibbi maska 10 qəpik, 100 ml həcmli şüşə qabdakı tibbi spirt isə 50 qəpikdir. Amma günlük tələbat xeyli artıb. Hətta spirti bizə limitlə verirlər. Yəni gündə 2 paketdən və ya 100 ədəddən artıq spirt gətirmək olmur".



Satıcılar onu da bildirdilər ki, son zamanlar məktəblərdə şagirdlərdən spirt və maska tələb olunur. Aptekə girənlərin əksəriyyəti maska və tibbi spirt aldığı üçün hazırda adıçəkilən məhsulların qıtlığı yaşanır.

*Günel CƏLİLOVA*

# Bakı Tekstil Fabrikinin ittihamı - 4 model oğurlayıbsınız - Bakı Tikiş Evinin sərt reaksiyası...

## Etibar Əzimov: "...özləri bizim formaları "kopirovka" edirlər"

**Azərbaycanın orta ümumtəhsil məktəblərində təhsil alan şagirdlərin 2020-2021-ci tədris ilində tamamilə yeni dizaynda, yeni rəng çeşidində məktəbli formasından istifadə edəcəyi artıq xeyli müddətdir rəsmi şəkildə açıqlanıb.**

Şagirdlərimizin yeni tədris ilində geyəcəyi 4 modeldə təqdim ediləcək formaların hazırlanması işinin Təhsil Nazirliyi tərəfindən Bakı Tikiş Evinə həvalə edildiyi də məlumdur. Üzümüzə gələn aylardan başlayaraq Bakı Tikiş Evi məktəbli formalarının hazırlanmasına start verəcək.

Bu arada bir çox tikiş fabriki, o cümlədən, Bakı Tekstil Fabriki Bakı Tikiş Evini məktəbli forması bazarında monopoliya yaratmaqda ittiham edirlər. Bakı Tekstil Fabrikinin direktoru Səkinə Babayeva ötən həftə mətbuat konfransı keçirərək Bakı Tikiş Evinə qarşı bir sıra ittihamlar, o cümlədən, sahibi olduğu fabrikə aid olan 4 məktəbli geyim modelinin Bakı Tikiş Evi tərəfindən plagiatlığa məruz qaldığını açıqladı. 10 ildən artıq bir müddətdə məktəbli forması sahəsində böyük işlər gördüklərini deyən S.Babayevanın sözlərinə görə, Bakı Tikiş Evinin tikdiyi məktəbli formaları tamamilə keyfiyyətsizdir.

Bakı Tekstil Fabrikinin rəhbərinin Bakı Tikiş Evinə qarşı irəli sürdüyü ittihamlara Bakı Tikiş Evinin satış rəhbəri Etibar Əzimov çox sərt reaksiya verdi. E.Əzimov qeyd etdi ki, heç bir fabrikin təmsil etdiyi tikiş evini nə plagiatlıqda, nə monopoliya yaratmaqda, nə də keyfiyyətsiz məhsullar istehsal etməkdə ittiham edə bilməz. "Bakı Tekstil Fabrikinin, yaxud hansısa digər bir fabrikin hansı formasını mənimsəyə bilərik ki? Nəyləri var ki, nəylərini də mənimsəyək? Bunlar hamısı boş-boş sözlərdir. Ona görə də bu məsələyə geniş şərh vermək niyyətində deyiləm. Bakı Tikiş Evi 10 ildir 4 modeldə məktəbli forması tikir və həmin modellər də bizə məxsusdur, sertifikatımız, müəlliflik hüquqlarımız, dövlət tərəfindən təsdiqlənmiş sənədlərimiz var.

Yeni Bakı Tikiş Evi (BTE) artıq 10 ildir vahid məktəbli formasının istehsalını və satışını həyata keçirir. BTE loqosu ilə məktəbli geyimləri dörd modeldə hazırlanır. Gigiyenik və uyğunluq sertifikatı olan formaların parçası Türkiyədən gətirilir və bu geyimlər uşaqların sağlamlığına heç bir əks təsir göstərmir. Məktəbli formalarının keyfiyyətinə bir il zəmanət verilir. I-VI, VII-XI sinif şagirdləri üçün kostyumlar tikirik. Ümumilikdə isə BTE-nin 9 filialı var. Bizim tikdiyimiz məktəbli formaları Təhsil Nazirliyi tərəfindən 50 modelin içindən seçilib. Bizim istifadə etdiyimiz parçalar Avropa laboratoriyalarında sınaqdan çıxıb və sertifikat alıblar. Təhsil Nazirliyi də istəyir ki, sifarişi sertifikatı olan yerə versin. Gələcəkdə hansı modellər olacaq, onları müəyyənləşdiririk və hazırlayıb təqdim edəcəyik. Bakı Tikiş Evi heç bir halda monopoliya yaratmır. Bizim istehsal etdiyimiz cəmi 4 model üzrə məktəbli geyimləridir. Biz monopoliya yaradırıqsa, onda digər çeşiddə olan məktəbli formaları necə meydana çıxır? Bizim modellərimizdən də fərqli modellər var, şagirdlər istifadə edirlər. Bakı Tikiş Evinin, ümumiyyətlə, rayonlarla heç bir əlaqəsi yoxdur. Monopoliya yaratmışıqsa, onda rayon məktəbliləri geyimləri necə əldə edirlər? Onların geyimləri başqa fabriklərə məxsusdur. Biz ötən il 20 min ədəd məktəbli forması tikmişik, onun da 10 min ədədini Təhsil Nazirliyi alıb internat məktəblərinə və ehtiyacı olan şagirdlərə payladı. Yeni tədris ilində 3 forma təsdiqlənəcək. Onun biri Bakı Tikiş Evinə aid olacaq, bəs o birilər hansı qurumun olacaq? Əlbəttə ki, başqa məktəbli formaları tikən fabriklər də iş təqdim edəcəklər. Bizi plagiatlıqda ittiham edənlər, əksinə, özləri bizim formaları "kopirovka" edirlər. Bakı Tikiş Evinin keçən il istehsalı cəmi 20 min ədəd olub, Azərbaycan orta ümumtəhsil məktəblərində isə 1 milyon 800 min nəfər şagird təhsil alır. 20 min nəfərin geyimini Bakı Tikiş Evi satırsa, geridə qalan formaları kim satır?".




"Bakı Tikiş Evi heç bir halda monopoliya yaratmır"

Bakı Tikiş Evinin məhsullarının kifayət qədər keyfiyyətli olduğunu deyən E.Əzimovun sözlərinə görə, "Sədərək", "Binə" bazarlarında, eləcə də digər ticarət mərkəzlərində Bakı Tikiş Evi adından saxta məktəbli formaları satılır.

**O qeyd etdi ki, bu məktəbli formalarının parçaları keyfiyyətsizdir və gigiyenik tələblərə cavab vermir, geyim standartlarından uzaqdır. O dedi ki, bu gün müxtəlif işbazlar var və həmin işbazlar BTE-nin fəaliyyətini kölgəyə atmaq istəyirlər. Keyfiyyətsiz məktəbli geyimlərini bazardan çıxarmağın yollarının aradıldığını deyən E.Əzimovun sözlərinə görə, BTE-nin adından istifadə edənlərin aşkarlanaraq üzə çıxarılması üçün dəfələrlə əlaqədar qurumlara müraciət edilib. E.Əzimov onu da qeyd etdi ki, BTE istehsal etdiyi məktəbli geyimlərinə 1 il zəmanət verir.**

***İradə SARIYEVA***

# Azərbaycan Dövlət Pedaqoji Universitetinin rektorları...

**Bu yaxınlarda pedaqoji elmlər doktoru, professor, Əməkdar elm xadimi, Azərbaycan Dövlət Pedaqoji Universitetinin İbtidai təhsil fakültəsinin dekanı Fərrux Rüstəmovun "Azərbaycan Dövlət Pedaqoji Universitetinin rektorları" kitabı nəşr olunub. Əsərin "Ön söz"ünün müəllifi ADPU-nun rektoru, professor Cəfər Cəfərov, elmi redaktoru professor Asəf Zamanovdur.**



ADPU-nun tarixinə aid yazılmış bu dəyərli əsər bizi keçmişimizlə üzləşdirir. Burada hələ Çar Rusiyasının müstəmləkəsi olan Şimali Azərbaycanın varlığı, bir millət kimi ayaqda qalması üçün çabalayan aristokratiya, milli burjuaziyanın görkəmli simaları, ulusun nicatını təhsildə görən ziyalılar və onların Azərbaycan xalqı üçün göstərmiş olduğu fədakarlıq əks olunub. Fərrux müəllimin bu əsərini oxuduqca bir oxucu olaraq hər zaman düşündüyüm suallara cavab tapa bildim. Necə oldu ki, 1813-cü il Gülüstan, 1828-ci il Türkmənçay müqaviləsi ilə ikiyə bölünmüş Şimali Azərbaycan 1918-ci ildə Cumhuriyyət elan etdi, 1920-ci ildə Sovet imperiyası tərəfindən süquta ugradılsa da 1991-ci ildə yenidən öz Müstəqilliyinə qovuşa bildi, bəs necə oldu ki, Cənubi Azərbaycanda 1910-cu ildə Səttarxanın, 1920-ci ildə Şeyx Məhəmməd Xiyabaninin, 1945-1946-cı illər Seyid Cəfər Pişəvərinin önderliyi ilə müstəqilliyə cəhd olunsa da nəticə əldə olunmadı? Cənubi Azərbaycanda Azərbaycan türklərinin sayı bizdən üç dəfə çoxdur, onlar ən az bizim qədər torpağına, milli kimliyinə bağlıdırlar. "Azərbaycan Dövlət Pedaqoji Universitetinin rektorları" kitabında bu suallara cavab var. Şimali Azərbaycanın müstəqilliyinə gedən yol məhz əsrin əvvəllərində başladılmış təhsil inqilabından, müasir, yeni tipli məktəblərin açılmasından, bu işə öz kapitalını əsirgəməmiş, sözün həqiqi mənasında milli olan insanların fədakar əməyindən keçir.

Əsərin "Giriş" hissəsində oxuyuruq ki, hələ 1899-cu ildə Bakıda Çar hökumətinin nümayəndələri ilə Bakı sahibkarları və xeyriyyəçiləri ilə təşkil olunmuş görüşdə Bakı Kommersiya Məktəbinin açılması ilə bağlı razılıq əldə edilib. İlkin mərhələdə məktəb üçün xüsusi binanın olmaması belə Bakı milyonçularını - H.Z. Tağıyevi, M.Nağıyevi və Fərrux bəy Vəzirovu ruhdan salmayıb, onlar təşkil olunacaq məktəb üçün binanın kirayələnməsinə və digər xərclərin qarşılanmasına maliyyə vəsaiti ayırıblar. Professor Fərrux Rüstəmov qeyd edir ki, məhz Bakı Kommersiya Məktəbinin Qəyyumlar Şurasının üzvləri-fəxri sədr H.Z. Tağıyev, Ə.Topçubaşov və digərləri Bakı Dumasına müraciət edərək Bakı Kommersiya Məktəbinin tikintisi üçün yer ayrılmasını xahiş edib. Dumanın razılığını əldə etmiş Qəyyumlar Şurası Çar İmperiyasının Sankt-Peterburq Memarlar Cəmiyyətinə 800 nəfərlik Bakı Kommersiya Məktəbinin binasının layihəsi üzrə müsabiqə elan etməyi xahiş edir. Müsabiqə elan olunur, 8 oktyabr 1904-cü ildə yekun vurulmuş müsabiqədə ilk üç yeri qazanmış layihədən məhz ikinci yeri tutmuş memar-mühəndis Q. T. Mikelovun "22№-li" adlı layihəsi məktəb binasının tikintisi üçün münasib görülür. Çox keçməyəcək, APİ(ADPU) görkəmli dövlət xadimi N.Nərimanovun 26 avqust 1921-ci ildə imzaladığı "Birinci Azərbaycan Dövlət Kişi Pedaqoji İnstitutunun təşkili haqqında" 66 saylı Dekreti ilə yaradılacaq və 100 ilin universitetinin həyat yolu bu evdən - bu binadan başlayacaq.

ADPU-nun tarixi, universitetin əsas tədris korpusunun yerləşdiyi bu möhtəşəm binanın tarixi məndə hər zaman maraq doğurub. Hətta mən bir dəfə 1981-1989-cu illər ADPU-nun rektoru işləmiş akademik Afad Qurbanovdan bu haqda soruşmuşdum. Xatirimdədir, rəhmətlik Afad müəllimlə birgə ikinci mərtəbəyə qalxırdıq. Mən: Afad müəllim, bu bina neçənci ildə tikilib?-deyə sual verdikdə, o , -1905-ci ildə,- demişdi. Afad müəllim o zaman əlavə olaraq dedi ki, bu bina II Dünya müharibəsi zamanı Hərbi qospital olub, (bu haqda Fərrux müəllim haqqında danışdığımız kitabda yazır) burada dünyasını dəyişən əsgərlərin bir çoxu elə binanın zəmin qatında dəfn olunub. Universitetlə bağlı bu kimi yüzlərlə tarixi faktlar pərakəndə halda müxtəlif mənbələrdə, bəzi insanların yaddaşlarında itib-batırdı, professor Fərrux Rüstəmovun "Azərbaycan Dövlət Pedaqoji Universitetinin rektorları" kitabını dəyərli edən amillərdən biri də budur ki, gələcək nəsillər, universitetin tarixini araşdıracaq elm adamları məhz bir mənbədən" Azərbaycan Dövlət Pedaqoji Universitetinin rektorları" kitabından istifadə etməklə vaxt itkisindən azad olacaq və təhsil tariximiz unudulmayacaq.

Bu kitab 100 illik tarixə malik, minlərlə məzunu olan bir universitetin tarixidir, bu tarixə sahib olmaq nə qədər şərəflidirsə, bu tarixi öyrənmək nə qədər qürurvericidirsə, bu tarixi yazmaq o qədər çətin və zəhmət tələb edən, gərgin zehni fəaliyyət, təcrübə, dərin elmi erudisya, anlitik təfəkkür tələb edən bir işdir.

Professor Fərrux Rüstəmov təkcə universitet tarixini təsvir etməklə məhdudlaşmayıb, eyni zamanda universitetin inkişafında xidməti olan rəhbər işçilərin, rektorların fəaliyyətini tədqiq edib. Müəllif təsvirçilikdən uzaq, konkret faktlara əsaslanaraq hər bir rektorun Azərbaycanda pedaqoji kadrların hazırlanmasında əldə etdiyi mühüm nəticələri oxucularla bölüşür.

Əsərdə ADPU-nun hazırki rektoru, professor C.Cəfərov da daxil olmaqla 31 rəhbər şəxs haqqında məlumat, onların həyatı, elmi-pedaqoji fəaliyyəti, Azərbaycan təhsilində oynadıqları rol, Pedaqoji Universitetin inkişafında göstərdikləri xidmətlər əks olunub.

"Azərbaycan Dövlət Pedaqoji Universitetinin rektorları" kitabını səhifələdikcə görürük ki, APİ-nin bir neçə rektoru günahsız yerə, qondarma ittihamlarla repressiya qurbanı olub. Əsərdə Şərif Əhmədziyanoviç (1887-1936), Pənah Ələkbər oğlu Qasımov (1881-1939), Məmməd Abbas oğlu Bayramov (1898-1938), Mirzə Sultan oğlu Məmmədov (1901-1938), Mirzə Davud oğlu Rəsulzadə (1900-1943) kimi repressiya qurbanlarının həyat hekayələrini həyəcansız, ürək ağrısız oxumaq mümkün deyil. Məlum olur ki, 1925-1939-cu illər APİ-yə (ADPU) rəhbərlik etmiş doqquz rektordan beş nəfəri repressiya qurbanıdır. Bu, Azərbaycan təhsilinə qanlı repressiya illərinin vurduğu zərbənin əyani sübutudur.

Əsərdə həyatı, elmi-pedaqoji fəaliyyəti əks olunmuş 31 rektorun APİ (ADPU)-yə rəhbərlik etdiyi dövrdə əldə etdiyi nailiyyətlər qələmə alınır. Onların bir neçəsinə nəzər salaq:

Fətulla Əziz oğlu Rzabəyli (1885-1968). APİ-nin ilk direktoru (rektoru). O, 1921-1924-cü illər APİ (ADPU)-yə rəhbərlik edib. Fərrux müəllimin verdiyi məlumata görə, 6 nəfər tələbəsi olmuş bir elm ocağına direktor təyin olunmuş Fətulla Əziz oğlu Rzabəylinin düzgün idarəçiliyi sayəsində 1923-1924-cü illər artıq institutda 100 tələbə təhsil alırdı. Fikrimizcə, F.Ə.Rzabəylinin Azərbaycan təhsili, institut qarşısında ən böyük xidmətlərindən biri həmin dövrdə APİ-yə V.V.Bartold, İ.İ.Meşşainov,N.Y.Marr, A.N.Samoyloviç, P.K.Juze, T.Hikmət kimi alimləri elmi pedaqoji fəaliyyətə cəlb etməsi olub. Burada müəllifin fikrini xatırlmaq yerinə düşərdi: "İlk milli ali təhsil müəssisəsində güclü müəllim kollektivi yaradıldı və ildən-ilə onların sayı milli kadrların hesabına artdı. Ali pedaqoji təhsil müəssisəsinin qarşısına yüksək ixtisaslı müəllim kadrları ilə bağlı qoyulan tələbin reallaşmasında bu çox vacib və zəruri məsələ idi."

"Azərbaycan Dövlət Pedaqoji Universitetinin rektorları" kitabına nəzər saldıqda görürük ki, 1921-1930-cu illər APİ(ADPU)-yə 6 rektor-F.Ə.Rzabəyli, M.R.Əfəndiyev, H.İ.Mahmudbəyov, Ş.Ə.Manatov, C.M.Məmmədzadə, P.Ə.Qasımov; 1930-1940-cı illər 4, 1940-1950-ci illər 5, 1950-1960-cı illər 3, 1960-1970-3, 1970-1980-ci illər 1, 1980-1990-cı illər 1, 1990-2000-ci illər 3, 2000-2010-cu illər 2, 2010-2016-cı illər 2 rektor rəhbərlik edib. Bu müqayisə onu göstərir ki, APİ (ADPU)-nin yaradıldığı ilk illərdə bu elm ocağına rəhbərlik etmiş insanların say çoxluğu var. Bu da öz növbəsində həmin illərə aid arxiv materiallarının tapılıb işlənməsi, xüsusilə də repressiyaya məruz qalmış rəhbərlərin həyat və fəaliyyəti haqqında məlumatın çətinliklə əldə edilməsi deməkdir ki, müəllif bu işin öhdəsindən məharətlə gəlib, oxucu qarşısında ADPU-nun keçdiyi şanlı tarixi birəbir canlandırıb.

Bir oxucu olaraq "Azərbaycan Dövlət Pedaqoji Universitetinin rektorları" kitabını dərin maraq və diqqətlə oxudum, məzunu, əməkdaşı olduğum universitetin necə çətinliklərlə 100 yaşa gəlib çatdığını gördüm. Əsəri həyəcanla, eyni zamanda qürur hissi ilə oxudum.

"ADPU-nun tarixi" də adlandıra biləcəyimiz bu əsərdə bir neçə rektor haqqında müəllifin xüsusi şövqlə bəhs etdiyinin şahidi olursan. Məsələn, müəllif 01.07.1981-06.04.1989-cu illər ADPU-ya rəhbərlik etmiş akademik A. Qurbanov haqqında olan bölməni o qədər rəğbətlə işləyib ki, oxucu sətirlərin sehrinə düşür. Bu təsadüfi deyil. Akademik A. Qurbanovun ADPU-ya rəhbərlik etdiyi həmin illəri universitetin "qızıl dövrü" adlandırırlar. Hər şeydən öncə ona görə ki, məhz Afad müəllimin rektor olduğu illərdə Ümummilli liderimiz Heydər Əliyev APİ (ADPU)-ni ziyarət edib, institutun müəllim və tələbələri qarşısında çıxış edib. Afad müəllimin rektor olduğu dövrdə Ulu öndərin xeyir-duası ilə APİ (ADPU)-də "İbtidai hərbi və fiziki təlim" fakültəsi açılıb. Məhz Afad müəllimin rəhbərlik etdiyi dövrdə institutda keçirilmiş elmi-praktik konfranslar, dünya şöhrətli alimlərin bu tədbirlərdə iştirakı institutun nüfuzunun yüksəlməsinə səbəb olub.

Professor Fərrux Rüstəmovun elmi-pedaqoji və idarəçilik fəaliyyətinə xüsusi diqqətlə yanaşdığı rektorlardan biri də ADPU-nun sonuncu rektoru, professor Cəfər Cəfərovdur. Müəllifin 2016-cı ilin 23 iyul tarixindən ADPU-ya rəhbərlik edən professor Cəfər Cəfərovun ötən üç il ərzində gördüyü işləri böyük həvəslə təsvir və təqdir etməsi təsadüfi deyil. Geridə qoyduğumuz son üç il və bu üç ildə görülmüş işlər həm Azərbaycan ictimaiyyətinin, həm də universitet kontingentinin gözü önündə baş verib. Əsərdə qeyd olunmuş faktlar hər birimizin canlı şahidliyi ilə həyata keçib. Müəllif professor C.Cəfərovun ADPU-da rektor kimi fəaliyyətini aşağıdakı şəkildə xarakterizə edir:

"Prof. Cəfər Cəfərovun qətiyyəti nəticəsində bütün obyektiv və subyektiv çətinliklərə, narazılıqlara baxmayaraq birləşmə prosesi qısa bir zamanda başa çatdı,universitetin sakit həyatı bərpa edildi və ciddi quruculuq işlərinə başlanıldı. Azərbaycan Müəllimlər İnstitutunun ADPU-ya birləşməsi və onun filiallarının(Ağcabədi,Cəlilabad,Quba, Şəki və Şamaxı)universitetin strukturuna çevrilməsi nəticəsində ADPU ölkədə pedaqoji kadr hazırlığı ilə məşğul olan vahid ixtisaslaşmış ali təhsil müəssisəsinə çevrildi...Bununla da ADPU inkişafının keyfiyyətcə yeni mərhələsinə qədəm qoydu.Bu məqsədlə 2016-cı ilin ikinci yarısında Təhsil Nazirliyinin tapşırığı və prof.Cəfər Cəfərovun rəhbərliyi ilə universitetin "Transformasiya üçün Yol Xəritəsi", "Tədrisin Keyfiyyətinin Yüksəldilməsinə dair 10 illik Strateji İnkişaf Planı" adlı iki fərqli strateji inkişaf layihələri hazırlandı".

Bundan başqa, müəllif haqlı olaraq ötən üç il ərzində ADPU-da aparılan köklü islahatları, beynəlxalq səviyyədə universitetimizin dünyanın aparıcı universitetləri ilə əlaqələrin qurulmasında atılan mütərəqqi addımları, ötən illər ərzində Respublikamızda keçirilmiş qəbul imtahanlarında 500 dən çox bal toplamış orta məktəb məzunlarının məhz ADPU-nu seçməsi faktının düzgün idarəçiliklə bağlı olduğunu qeyd edir və burada professor Cəfər Cəfərovun səmərəli fəaliyyətini göstərir.

Bu gün universitet həyatında irəliyə doğru atılmış mütərəqqi addımlara şahid olan bizlər olmadıqda belə müəllifin real faktlara söykənən qeydləri yaşayacaq. Heç şübhəsiz, professor Fərrux Rüstəmov "Azərbaycan Dövlət Pedaqoji Universitetinin rektorları" kitabını 31.01.2020 tarixindən sonra yazsaydı, kitabın ADPU-nun hazırki rektoru, professor Cəfər Cəfərov haqqında olan hissəsinə aşağıdakı fikirləri də əlavə edərdi:

31 yanvar 2020-ci ildə Azərbaycan Respublikasının Təhsil naziri Ceyhun Bayramov, ABŞ-ın ölkəmizdəki səfiri Örl Litzenberqer, ABŞ-ın Corc Vaşinqton Universitetinin Təhsil və insan fakültəsinin dekanı Maykl Foyer və ADPU-nun rektoru, professor Cəfər Cəfərovun iştirakı ilə ADPU və Corc Vaşinqton universitetləri arasında ikili diplom proqramı imzalanıb. Bu isə o deməkdir ki, 100 yaşlı Azərbaycan Dövlət Pedaqoji Universiteteti dünya universitetlərinə inteqrasiya edir, məhz rektor Cəfər Cəfərovun və onun çevik komandasının birgə səyi ilə Azərbaycan müəllimi yetişdirən bir universitetin məzunları dünyanın aparıcı universitetlərində təhsilini davam etdirib milli təhsil strategiyasına töhvə verəcək.

"Azərbaycan Dövlət Pedaqoji Universitetinin rektorları" kitabı 100 illik bir tarixin aynasıdır desək, yanılmarıq. Bu əsərdə APİ-nin (ADPU) yarandığı ilk gündən günümüzə qədər bütün tarixi keçmişi faktlarla əks olunub. Müəllifin əsərin sonunda yazdığı cümləni xatırlamaq yerinə düşərdi:"Tarixdə isə tarixi yaradanlarla yazanlar qalır." Burada müəllif "tarixi yaradanlar" dedikdə ADPU-nun bu günə qədər yaranmasında, formalaşmasında və inkişafında rolu olan ziyalılarımızı nəzərdə tutur, lakin unudur ki, ADPU-nun yetirməsi, müəllimi, professoru və ən nəhayət "Azərbaycan Dövlət Pedaqoji Universitetinin rektorları" kitabının müəllifi olaraq o özü də tarixi yaradanlardandır, tarixdə qalanlardandır....

***Bəhram CƏFƏROĞLU***
***ADPU-nun Azərbaycan dili və onun tədrisi texnologiyası kafedrasının baş müəllimi, filologiya üzrə fəlsəfə doktoru***

# İbtidai hay sürüsünün etno-morfo genezisinə səhra-quru çöl landşaftının təsiri

**"...ermənilərin dövləti olmayıb, onlar vətən hissindən və siyasi əlaqələrdən uzaqdır. Erməni vətənpərvərliyi yalnız onların yaşadıqları yerlə bağlıdır"**
**"...Movses Xorenatsi öz hekayətlərini Suriya nağılları, Suriya və İran tarixi mənbələri, İosif Flaviyanın "İudey müharibələri", Evseviy Kesarinin "Kilsə tarixi" əsərləri... əsasında qurmuşdur.**
**(Qevorq Aslanın "Ermənistan və ermənilər" (1914) və "Ermənilərin məskunlaşması haqqında" (1909, Paris şəhəri) əsərlərindən.)**

## (XV yazı)

Afrika qitəsinin relyef-landşaft strukturunun müxtəlifliyi, kəskin kontrastlığı regional qəbilə-tayfa birliklərində irqi və genetik bioloji-fizioloji irsi hüceyrələrinin ekzogen amillərdən asılılığı mərhələ-mərhələ güclənib. Xüsusilə, ekvatorial və subekvatorial iqlim və təbii zonalarda mağara-vadi ocaqlarında səpələnən ibtidai insan sürülərinin (o cümlədən erkən protohay toplumunun) etno-morfo genezisinin formalaşmasında bu amil daha həlledici olub, e.ə. VI-IV minilliklərdə.

İbtidai insan sürüləri halında Omo çayı, Tanzaniya cəngəllikləri, Həbəş dağlıq yaylası, Ququ və Axmar dağları silsiləsi, Moca və Avaş çayı... hövzələrində rast gəlinən ayasa, tiqran, tiqr, tiqrau qəbilələrinin Qırmızı dənizin (Mavi Nil çayının mənbəyindən şimala doğru) qərb sahilləri boyunca miqrasiyası aşağıdakı səbəblərlə əlaqələndirilir:

- ibtidai insan sürülərinin təbii yem dalınca axtarışı, yırtıcılardan qorunması və yeni yaşayış ocaqlarının tapılması;
- davamlı tayfalar-qəbilələrarası münaqişələr zamanı xəyanət etdikləri icma birlikləri tərəfindən qovulması və ya onlardan qorunmaq üçün başqa yerlərə hərəkət etməsi;
- ekstremal iqlim-relyef formasiyasının təsiri nəticəsində irqi və genetik morfogenezis rüşeymlərinin bioloji yenilənməsi;
- əlverişli məskunlaşma ocaqlarına və yeni əmək vərdişlərinə yiyələnmə instinkti;
- Şərqi Afrika regionunda dağıdıcı təbiət hadisələrinin (zəlzələ, vulkan püskürmələri, torpaq sürüşmələri, çay daşqınları, meşə yanğınları, yırtıcı vəhşi heyvanların hücumu...) tez-tez təkrarlanması.

Məhz bu səbəblərdən ibtidai-protohay insan sürülərinin yayla - meşə - çay vadisi - səhra landşaftları boyunca hərəkət istiqamətlərinin izləri (yüzilliklər-minilliklər ərzində), bioloji-irqi təzahürləri onların etno-morfo genezisində ifadə olunub. Təsadüfi deyil ki, antik dövr və son yüzilliklər müəlliflərinin əsərlərində (Herodot, e.ə. 484-425-ci illər, "Tarix" əsəri; Siciliyalı Diodor, e.ə.90-30-cu illər, "Tarixi kitabxana", Misirə aid-I, Şimali Afrikaya aid-III kitab; yunan dəniz cəyyahı Kizikli Evdoks,e.ə.II əsr, Sebenitli Manefon, e.ə. III əsr, "Misir tarixi"; Qeorquy Sinkell, bizans tarixçisi, VIII-IX əsr, "Seçilmiş xronoqrafiya"; Ammian Martsellin, 332-400-cü illər, "Əməllər 31 kitabda" və ya "Tarix" (bu kitab "Roma tarixi" də adlanıb); L.N.Qumilyov, 1912-1992, yazıçı-mütəfəkkir, "Etnos və landşaft" əsəri, 1968)... Afrika qitəsi şəraitində (xüsusilə, onun şərqində) iqlim-landşaft strukturunun qəbilə-tayfa birliklərinin etno-morfo gen daşıyıcılarına kompleks təsiri barədə tutarlı dəlillər qeyd edilir. Bu mənbələr ilk növbədə eramızdan əvvəlki minilliklərdə qədim dünya hüdudlarında (erkən sivilizasiyada) ibtidai insan sürülərinin, qəbilə-tayfa və icma birliklərinin təbii mühitlə qarşılıqlı əlaqəsinin inkişaf mərhələlərini tarixi-coğrafi xronoloji ardıcıllığı, biloloji-irqi xüsusiyyətlərinin ekzogen amillərdən (ekstremal təsirlərdən) asılılığı, zaman-məkan baxımından qədim köç-miqrasiya istiqamətlərinin sosial-siyasi və hərbi aspektlərdən təsvir və təhlil edilməsi, erkən dünya mədəniyyətinin ilkinliyində insan cəmiyyətinin həyat tərzi və davranış elementlərinin gen daşıyıcılarının formalaşması...kimi aspektlərin elmi-nəzəri baxımdan araşdırılması üçün mühüm tarixi əhəmiyyətə malikdir. Həmin müddəaların kontekstində ilkin bəşər sivilizasiyasının ocağı kimi ümumilikdə Afrika qitəsi ona görə xüsusi səciyyə daşıyır ki, ilk qədim insan yaşayış məskənləri, qəbilə-tayfa birliklərinin yayıldığı coğrafi məkan Şərqi Afrikada dağlıq yaylalar, tropik cəngəllikli meşələr və rütubətli-quru çay vadiləri, səhra (quru çöl) landşaftı olub. Təbii ki, bu ərazilərdə yayılmış çoxsaylı ibtidai insan sürüləri içərisində ibtidai protohay qəbilə-tayfa sürüləri istisnalıq təşkil etməyib.

Şərqi Afrika regionunun ekstremal iqlim-landşaft şəraitinin zaman-məkan baxımından aborigen (regional) və subaborigen (məhz ibtidai protohay sürülərinin) qəbilə-tayfa birliklərinə təsiri və bu təsirin onların etno-morfo genezisində izləri, irqi-bioloji irsində aparıcı xəttə çevrilməsi həm də xüsusi təhlilə cəlb edilməkdədir.

Bu baxımdan ibtidai prothay insan sürülərinin Həbəş dağlıq yaylası-Omo çayı hövzəsi və Ayk-Tana gölü ətrafında yayıldıqları e.ə. VIII-VII minilliklər dövründən sonrakı mərhələdə (e.ə. VI-III minilliklərdə) bu canlılar Qırmızı dəniz sahillərində yerləşən Nubiya və Ərəbistan səhra və quru çöl-çay vadilərində məskunlaşmaqla irqi-genetik qan daşıyıcılığına təsir edən və bioloji formalaşma mərhələlərində ifadə olunan təbii mühit təsirləri ilə qarşılaşıblar.



Rus-sovet coğrafiyaşünası L.S.Berq (1876-1950) "Nomoqenez" əsərində (Petroqrad, 1922, səh.180-181) qeyd edir ki, coğrafi landşaftın canlı orqanizmə davamlı təsiri müəyyən şəraitdə (istiqamət üzrə) növ, cins müxtəlifliyinə səbəb olur, orqanizm strukturunda xüsusi iz buraxır. Coğrafi mühitə uyğunlaşmayan növ, cins... orqanizmlər digər coğrafi mühitə miqrasiya edir, ya da məhv olaraq aradan çıxır".

Göründüyü kimi, ibridai protohay sürülərinin Afrika qitəsinin şərq və şimal-şərq əraziləri boyunca minilliklər ərzində yerdəyişməsi-miqrasiyası onların növ-irq xüsusiyyətlərinin irsi-genetik quruluşunu formalaşdırmaqla, həm də onlarda xüsusi etnik-morfoloji cizgilərin yaranmasına səbəb olub. Bu sürünün məkan baxımından davamlı olaraq yerdəyişməsi həm təbii-dağıdıcı hadisələrin təsirindən, həm də qəbilələrarası qanlı münaqişələrdən xilasolma, qorunma,varolma instinktinin güclü olmasına bir işarədir.

Əvvəlki yazılarımızda bu qüvvələrin tarixi-coğrafi məkanı kimi indiki Həbəşistan-Tanzaniya-Keniya əraziləri qiymətləndirilir. Bu dəfə Sudan ərazisində və Yuxarı Misir hövzəsində, Qırmızı dənizin qərb hissəsindəki Nubiya və Ərəbistan səhralarının, quru-çöl və çay vadilərinin ibtidai protohay sürülərinin etno-morfo genezisinə təsiri təhlil ediləcək. Somali yarımadasının şimalında-Yuxarı Nil (Abbad çayı-Mavi Nil) çayı hövzəsində və Qırmızı dəniz sahillərində Afar vadisi, Abaş çayı yatağı, Nil çayının 4-cü və 1-ci döngələri arasındakı Nubiya-Bayude səhrası (Sudan ərazisində), 1-ci döngə ilə Delta arasındakı Ərəbistan səhrası, Ras-Daşan (4620 m) mağaraları ... protohay sürüsünün e.ə. IV-II minilliklərdə miqrasiya məkanları (ocaqları) kimi qəbul edilir. Adları qeyd edilən bu ərazilərə səpələnən hay canlılarının etno-morfo genezisində təbii təsir amillərindən asılı olaraq formalaşan qisasçılıq (ekstremal ətraf mühitdən istədiyini ələ edə bilmədiyi üçün), vəhşilik (vəhşi-yıtıcı heyvanların təhlükəsindən qorunmaq və onlara qarşı mübarizə hissinin təzahürü), barbarlıq (başqalarının irsinə qarşı nifrətin güclü olması), xəyanət (istədiyinə nail omaq üçün bütün vasitələrdən istifadəetmə instinktinin üstünlüyü)...rüşeymlərinin gen daşıyıcıları formalaşıb. Odur ki, protohay sürülərinin şüurunda bu instinkt hissinin gen daşıyıcılarının ekstremal iqlim-landşaft strukturundan mayalanması sonrakı dövrlərdə və digər ərazilərdə də daha güclü olub. Ümumiyyətlə, bu amil (təbii təsirlərin güclü olması) özü də etnik miqrasiyanın yaranmasına səbəb olub. Yəni Şərqi Afrika regionunda qəbilə-tayfa birliklərinin zaman-zaman yerdəyişməsi ekstremal təbiət hadisələrinin geniş coğrafi məkan əhatə etməsindən əlavə, həm də daha gücü olmaları ilə bağlı idi. Bu xüsusda protohay insan sürüləri istisnalıq təşkil etməyib. Yəni ibtidai hay toplumunun genetik və sosial gen daşıyıcılarının təmas nöqtələrində mütləq iqlim-landşaft elementlərindən doğan ifadə formalarına rast gəlinir.

Səhra lanşaftı onlarda yaşam uğrunda mübarizə hissini gücləndirmişsə, quru-çöl və çay vadilərində onlar daha çox yem dalınca getməyi üstün hesab edib, mağara-vadi ocaqları onlarda yerli şəraitə uyğun əmək vərdişlərinin yaranması ilə nəticələnib.

Digər sovet alimi Y.Q.Sauşkin (1911-1982, iqtisadi-coğrafiyaşünas, "Materiya, zaman və coğrafi məkanın müxtəlif hərəkət formalarının dialektik qarşılıqlı təsirlərinin obyektiv qanunauyğunluqları" əsəri", SSRİ Coğrafiya Cəmiyyətinin Xəbərləri, 1980, 6-cı sayı...) göstərir ki, "...coğrafi mühitdə təbii qanunauyğunluqlarla yanaşı, ictimai qanunların təsiri ilə müəyyən istiqamət ("antroposfer") də formalaşır." Təbii və ictimai amillərin təsiri müəyyən bir sosial təbəqənin yaranması üçün şərt olduğu kimi, e.ə. IV-II minilliklərdə bu təzahür protohay sürüsünün timsalında aydın görünür. Onların təbiətdən asılılığı və qarşılıqlı təsiri gen daşıyıcılarının və əmək vərdişlərinin struktural formalaşması üçün əsas olub.

Ona görə də Şərqi Afrika dağlıq və yayla landşaftından səhra-quru çöl vadilərinə doğru hərəkət edən ibtidai protohay sürülərinin irqi-genetik etno-morfo bioloji strukturunun (sosial istiqamətlərlə yanaşı) etnik-morfoloji klassifikasiyasını yaratmaq mümkündür:

- protohay sürülərinin təbiət hadisələrinə qarşı müqavimət göstərməleri onların qəbilə-tayfa birliyi kimi formalaşmasını sürətləndirib;
- aborigen tayfa birliklərindən qorunmaqla yanaşı, onlarla ittifaq yarada bilmişlər;
- hay qəbilə-tayfa birliklərinin ixtisalaşma istiqamətləri - əmək vərdişləri və hərbi-siyasi strukturlar üzrə - formalaşıb, yeni istehsal formalarını (əkinçilik, heyvandarlıq, sənətkarlıq, ticari...) öyrəniblər;
- hay qəbilə-tayfa birliklərinin yəhudi, misir, ərəb, yunan etnobirliklərinə assimiliyasiyası sonrakı mərhələdə daha da genişlənib;
- assimiliyasiya prosesinin yeni istiqamətləri həm sosial quruluşda, həm də etnik-morfo həyat tərzində özəl istiqamətlərin yaranması ilə nəticələnib (sonrakı minilliklərəd bu daha aydın ifadə olunub);
- hay sürüsünün davranış-şüur tərzində xristianlığaqədərki dövrdə kahinlik-cadugərlik təlqinlərinə, ibadət mərasimlərini yiyələnmək hissi güclü olub.

Sonrakı mərhələdə hay sürüsünün daha geniş regional miqrasiyası üçün münbit ictimai-siyasi zəmin yaranıb. Belə ki, onlar yəhudi-misir (daha sonra ərəb) icmaları içərisində özlərinə yer edərək Qırmızı dənizin qərb sahillərində hərbi-siyasi və ictimai-sosial qurumlarda iştirak edə biliblər.

Bu barədə növbəti yazılarımızda.

***Qismət YUNUSOĞLU***
***Bakı Dövlət Universitetinin müəllimi***

# Bakının şəhər nəqliyyat vasitələrinin ağır durumu - Hətta Sumqayıt səviyyəsində də deyilmiş...

**"Sumqayıtdan fərqli olaraq, bizim başqa şəhərlərdə vəziyyət acınacaqlıdır. Şəhər nəqliyyatı bərbad vəziyyətdədir". Bunu Prezident İlham Əliyev "Azərbaycan Respublikası regionlarının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın icrasının birinci ilinin yekunlarına həsr olunan konfransda çıxış edərkən deyib.**



***Elməddin Muradlı:** "Bu gün rayonlararası fəaliyyət göstərən avtobusların 70 faizinin ili köhnədir və faktiki olaraq, onların istismar müddəti başa çatıb"*

Ölkə başçısının sözlərinə görə, Bakı şəhərinin nəqliyyatı yaxşılaşdırılır: "İndi həm dövlət, həm özəl sektor xətti ilə daha səmərəli fəaliyyət göstərir. Xüsusilə mən özəl sektoru qeyd etmək istəyirəm. Çünki onlar da görürlər ki, dövlət xətti ilə gətirilən avtobuslar bütün standartlara cavab verir. Onların isə istifadə etdikləri avtobuslar artıq çoxdandır yararsız vəziyyətə düşüb. Ona görə məsuliyyətli sahibkarlar dərhal bu işlərlə məşğul olmağa başlayıblar. Əminəm ki, bundan sonra da həm özəl qurumlar, həm dövlət sektoru bu işdə fəal olacaqdır. Ancaq Sumqayıtdan fərqli olaraq, bizim başqa şəhərlərdə vəziyyət acınacaqlıdır. Şəhər nəqliyyatı bərbad vəziyyətdədir. İstifadə olunan avtobuslar heç bir meyarlara cavab vermir. Ona görə mən həm yerli icra orqanlarına, həm də Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinə müvafiq göstəriş vermişəm ki, mənə geniş məlumat versinlər, mövcud avtobus parkı nə vəziyyətdədir? Biz bu məsələni də həll etməliyik. Hər bir şəhərdə nəqliyyat yaxşı olmalıdır. Yollar yaxşıdır, nəqliyyat da yaxşı olmalıdır ki, vətəndaşlar mənzil başına, iş yerinə rahat çata bilsinlər".

Həqiqətən də digər şəhərlərdə istər şəhərdaxili, istərsə də şəhərlərarası ictimai nəqliyyat müasir tələblərə cavab vermir. Bu da sərnişinlər üçün bir sıra problemlər yaradır.

Sözügedən məsələ ilə bağlı fikirlərini "Bakı-Xəbər"lə bölüşən nəqliyyat sahəsi üzrə ekspert Elməddin Muradlının sözlərinə görə, digər şəhərlərdə ictimai nəqliyyatın vəziyyəti yaxşı deyil: "Bununla bağlı çoxsaylı problem var. Əsas problem ondan ibarətdir ki, ictimai nəqliyyat vasitələrinin istismar müddəti başa çatıb. Bu gün rayonlararası fəaliyyət göstərən avtobusların 70 faizinin ili köhnədir və faktiki olaraq, onların istismar müddəti başa çatıb. Eyni zamanda, şəhərdaxili nəqliyyat vasitələri də köhnəlib. Təəssüf ki, bununla bağlı müəyyən addımlar atılmır. Son illər əsasən Bakı şəhərində ictimai nəqliyyata vəsait ayrılır. Bölgələrdə bununla bağlı vəziyyət isə yaxşı deyil. Ona görə də bütün ölkə üzrə məsələlər tənzimlənməlidir. Çünki köhnə avtobuslarla hərəkət sərnişinlər üçün daha ciddi təhlükə deməkdir. Məsələ ondadır ki, köhnə avtobusların iştirakı ilə baş verən qəzalar daha ağır nəticələrə yol açır. Bu zaman ölən və yaralananlar daha çox olur. O baxımdan cənab Prezidentin toxunduğu məsələlər çox vacibdir. Rayonlarda avtobus parkı yenilənməlidir.

*"Köhnə avtobusların iştirakı ilə baş verən qəzalar daha ağır nəticələrə yol açır"*

Azərbaycan həm də turizm ölkəsi olduğu üçün bütün bunlar nəzərə alınmalıdır. Çünki ölkəyə gələn turistlərin əksəriyyəti ictimai nəqliyyat növlərindən istifadə edir. Bölgələrə gedərkən, geri qayıdarkən ictimai nəqliyyat vasitələrindən istifadə edirlər. Necə ki, biz xarici ölkələrə turist kimi səfərə gedəndə ictimai nəqliyyata üstünlük veririk, onlar da harasa gedəndə ictimai nəqliyyat vasitələrindən istifadə edirlər. Ona görə də Azərbaycana gələn turistlərə normal ictimai nəqliyyat xidmət etməlidir. Bu baxımdan hesab edirəm ki, bütün ölkə üzrə ictimai nəqliyyat parkı yenilənməlidir".

***Vidadi ORDAHALLI***

# Baş Prokurorluq Nərmin olayı ilə bağlı xəbərlərə münasibət bildirdi...



**Baş Prokurorluğun Mətbuat xidmətinin məlumatına görə, son günlər bəzi sosial şəbəkələr və ayrı-ayrı internet informasiya resurslarında Tovuz rayonunda azyaşlının qəsdən öldürülməsi faktı üzrə müxtəlif anonim informasiyalar yayılır.**

Məlumatda bildirilir ki, qeyd edilən faktla bağlı Baş Prokurorluğun Ağır cinayətlərə dair işlər üzrə istintaq idarəsində tam, hərtərəfli və obyektiv istintaq-əməliyyat tədbirləri davam etdirilməklə həmin informasiyalar öyrənilir və araşdırılması təmin olunacaq.

İstintaq-əməliyyat qrupu tərəfindən həmin qətllə bağlı məlumatlı olan şəxslərdən +99412 440 75 25 və +99412 440 79 25 nömrəli telefonlara müraciət etmələri xahiş olunur.

Məlumat vermiş şəxslərin anonimliyi və təhlükəsizliyinə təminat verilir.

Eyni zamanda, Baş Prokurorluq tərəfindən kütləvi informasiya vasitələrinə aidiyyəti dövlət qurumlarının mətbuat xidmətləri ilə dəqiqləşdirmələr aparılmadan istintaqın maraqlarına zidd olmaqla konfidensial informasiya hesab edilən məlumatların yayılmasına yol verməmələri bir daha tövsiyə edilir. Bildirilir ki, istintaqın gedişatı ilə bağlı zərurət yarandıqda ictimaiyyətə əlavə məlumat veriləcək.

# Lerikdə ictimai nəqliyyat problemi - uzun illərdir bu işlə maraqlanan yoxdur...




**Respublikamız sürətli inkişaf mərhələsində olduğu halda, Lerik rayonun əksər kənd əhalisi son illər yaranmış problemlərin qarşısında acizdir.**

Əksəriyyət çıxış yolunu baş götürüb buralardan getməkdə görür. Bunun da əsas səbəbi rayon rəhbərlərinin özbaşınalığı, tutduğu vəzifə səlahiyyətlərini aşaraq "yeddi arxa dönəninə" külli miqdarda var-dövlət toplamaq hərisliyidir. İndiyə qədər olmayıb ki, rayon rəhbərliyi rüşvətsiz kiminsə haqlı şikayətinə əncam çəksin. Kimin "adamı" vəzifədədir, həmin kəs, əyri yollarla olsa da, yaşaya bilir. Lerikdə hər günün öz çətinlikləri var. Dövlətin insan amili ilə bağlı verdiyi qərar və Fərmanlar burada sadə adamlar üçün heç əhəmiyyət daşımır. Bütün bunlar bir yana qalsın, indi kəndlərdən rayon mərkəzinə getmək hər adamın işi deyil. Çünki mərkəzdən rayonun kəndlərinə ictimai nəqliyyat yoxdur. Sovet vaxtı kəndlərə işləyən 26 saylı avtobus marşrutu da bağlanıb. Adamın inanmağı gəlmir ki, Azərbaycanda ikinci belə bir rayon olsun. Çox sağ olsun dövlət başçımız ki, Lerikin əksər kəndlərinə rahat asfalt yollar çəkilib. Lakin rayonda olan hərcmərclikdən istifadə edən ara sürücüləri yol sıradan yenə adamları girinc vəziyyətə salıb. Hazırda vacib işdən ötrü Lerik kəndlisinə rayon mərkəzinə gedib-gəlmək 20 manata başa gəlir. Halbuki, ictimai nəqliyyat olsa, bu işdən ötrü cəmi 2 manat xərc çəkmək kifayət edər. Rayonun Daster, Siyov, Conu, Bürsülüm ərazilərdə vəziyyət daha da ağırdır.

Hələlik əhalinin narazılığı rayon "yiyələrini" narahat etmir. Görək, aləqədar qurumlar vəziyyətdən xəbər tutduqda bu rahatlıqlarını necə izah edəcəklər...

***Zəfər ORUCOĞLU***
***Azərbaycan Jurnalistlər Birliyinin üzvü***

№ 21 (4152) ■ Qiyməti: 40 qəpik

# BAKI XƏBƏR

www.baki-xeber.com

6 FEVRAL 2020-ci il



## İnsana laboratoriyada yetişdirilmiş ürək əzələsi köçürüldü

**Yaponiyanın Osaka Universitetinin alimləri ilk dəfə olaraq ürək əzələlərinin yeni transplantasiya növünü uğurla tamamladıqlarını elan ediblər.**

"Ted.az" bildirir ki, tədqiqatçılar ürəyi yenisi ilə əvəz etmək yerinə, ürək əzələsinin hüceyrələrini pasiyentin ürəyinin zərər görmüş hissələrinə tətbiq ediblər. Alimlər bildiriblər ki, laboratoriya şəraitində yetişdirilmiş hüceyrələr pasiyentin orqanizmi tərəfindən mənimsənildiyi halda bir çox ürək xəstəliyi zamanı donor orqan axtarmağa ehtiyac qalmayacaq. Ürək əzələsi hüceyrələrini yetişdirmək üçün induksiya olunmuş pluripotent kök hüceyrələrindən istifadə edilib. Bu hüceyrələr yetkin insanın istənilən hüceyrəsini proqramlaşdırma yolu ilə yenidən embrional pluripotent vəziyyətinə qaytarmaqla yetişdirilir.

Osaka Universitetinin alimlər komandası ümid edir ki, təbəqədə yerləşdirilmiş əzələ hüceyrələri pasiyentin ürəyinin funksiyasını yaxşılaşdıraraq, qan damarlarının regenerasiyasına imkan yaradan zülalı ifraz edəcəklər. Təcrübə uğurlu alınarsa, bu prosedur ürəyin yenisi ilə əvəzlənməsinə alternativ olacaq.

## Haymoriti adi qara çayla sağaltdı...

**Adi soyuqdəymənin və infeksiyanın xroniki haymoritə çevrilməsi arasında vaxt o qədər qısadır ki, insan nə vaxt haymorit olduğunu belə bəzən bilmir.**

Haymorit vaxtında müalicə olunmadıqda xronikləşir və onu sağaltmaq bir o qədər çətinləşir. "Medicina.az" adi qara çayla haymoritin müalicəsini mümkün edən maraqlı resepti təqdim edir. Bunun üçün tünd, təzə çay dəmləyirsiniz. 2 xörək qaşığı çay, bir çay qaşığı təmiz bal, bir çay qaşığı ekvalipt cövhəri (aptekdə satılır) qarışdırılır. Bir şüşə qaba tökülür. Bu məhluldan pipetka ilə buruna 3-4 damcı damızdırılır, gündə 3 dəfə. Bunu zökəmdən burun tutulanda da tətbiq edə bilərsiniz.

## Elan

Bəbirova Samirə Ramin qızına Rabitə və Nəqliyyat Kolleci tərəfindən verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

---

Mahmudov Hüseyn Aydın oğlunun adına 90UA756 avtomobilin texniki pasportu itdiyi üçün etibarsız sayılır.

---

Əliyev Zamin Nazir oğlunun adına, Bakı şəhəri, Qaradağ rayonu, Lökbatan qəsəbəsi, 1-ci massiv, 3-cü küçə, ev 133B ünvanında yerləşən 0.02 ha torpağın 1117070047 nömrəli çıxarış və plan-ölçüsü itdiyi üçün etibarsız sayılır.

---

Həmidov Cəfər Həmidağa oğlunun adına, Bakı şəhəri, Xəzər rayonu, Zirə qəsəbəsində yerləşən 6 sot torpağın qeydiyyat vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

## İnfeksiyaya qarşı rəng dəyişdirən "ağıllı sarğı"...

**Alimlər infeksiyanın vəziyyətinə görə rəng dəyişdirən "ağıllı sarğı" ixtira ediblər. Sarğı yalnız bakteriyanın müqavimətini təyin etməklə kifayətlənmir, eyni zamanda, infeksiyaya qarşı müalicə də tətbiq edə bilir.**



"Deyerler.org"un məlumatına görə, bakteriyalar antibiotiklərə qarşı təkmilləşən bir müqavimətə malikdir və müəyyən bir infeksiyanın bir dərmana müqavimətli olub-olmadığını anlamaq zaman alır. Çin Elmlər Akademiyasından araşdırmaçılar dərmana müqavimətli (DR) və ya dərmana həssas (DS) bakteriyaları rəng dəyişdirərək göstərən "ağıllı sarğı" ixtira ediblər. Sarğı infeksiyanın vəziyyətini təsbit etdikdən sonra bakteriyaları öldürmək üçün antibiotik ifraz edə bilir.

Sarğı yaraya tətbiq olunduqda infeksiya yoxdursa, yaşıl rəngə çevrilir. Antibiotiklərə həssas bakteriyalar təsbit etsə, rəngi təxminən dörd saatlıq bir müddət boyunca sarıya dönür.

Ancaq dərmana müqavimətli bakteriyalar təsbit etsə, qırmızı olur. Bu rəngdəyişdirmə xüsusiyyəti sarğının içinə yerləşdirilən kimyəvi maddələr sayəsində mümkün olur. Sarğı dərmana həssas və ya müqavimətli E.Koli infeksiyaları olan siçanların üzərində təcrübədən keçirilib və ümid edildiyi kimi, rəng dəyişdirdiyi, bakteriyaları öldürmədə təsirli olduğu görülüb.

## BƏƏ-də ən uzun əlsıxma mərasimi "Ginnesin Rekordlar Kitabı"na düşüb

**Birləşmiş Ərəb Əmirliklərində dünyanın ən uzun əlsıxma mərasimi keçirilib.**



Belə ki, 1817 nəfərdən ibarət insan zənciri Əbu-Dabinin Umm Al Emarat parkında "Vahid dünya - tək mesaj" adlı tədbirdə bir-birinin əlini sıxaraq dünya rekorduna imza atıb. "Emirates" informasiya agentliyi xəbər verir ki, təşəbbüs Əbu-Dabi Polis Departamentinin Gənclər Şurası tərəfindən Roma Papası Fransisk və Böyük Əl-Əzhar İmamının görüşməsinin birinci ildönümü münasibətilə irəli sürülüb. Həmin görüşdə insanların qardaşlığı haqqında sənəd imzalanmışdı. Mərasimdə BƏƏ-nin analıq məsələləri üzrə Ali Şurasının sədri Fatima bint Mübarək və Tolerantlıq naziri Nəhyan bin Mübarək Əl Nəhyan iştirak ediblər. Mərasimin sonunda "Ginnesin Rekordlar Kitabı"nın sertifikatı BƏƏ-nin yüksək vəzifəli şəxslərinə təqdim edilib.





**Qoç** - Maraqlı tanışlıq istisna deyil. Yeni romantik təmas sürətlə inkişaf edəcək. Qarşı tərəfin rəğbətini qazanın, amma soyuqqanlı olun. Sizə əsla uyğun olmayan insanın toruna düşməyin.



**Buğa** - Orijinal ideyalarınızı yaxın ətrafınızdakı insanlar dəyərləndirəcəklər. Müttəfiq və həmfikir axtarışları uğurla başa çatacaq. Günün ikinci yarısında başlaya biləcək romantik münasibət yaşamınızda mühüm rol oynayacaq.



**Əkizlər** - Yaradıcı yanaşma tələb etməyən, darıxdırıcı işləri təxirə salın. Diqqətli və əzmli olun, çətin işi yarımçıq qoyaraq yüngül işə başlamayın. Belədə gözlədiyiniz nəticəni ala bilməyəcəksiniz.



**Xərçəng** - Səfər və ya səyahət gözlənilən nəticəni verməyəcək. Günün ikinci yarısında bütün çətinliklər və anlaşılmazlıqlara rəğmən əhvalınızı pozmayın. Sizi təxribata çəkənlərlə belə, münaqişə etməyin.



**Şir** - İstirahət və əyləncəni müvəqqəti təxirə salaraq faydalı işlə məşğul olun. Detalları qulaqardına vurmayın, təfərrüatlara fikir verin. Önəmli münasibətlər istədiyiniz dinamikada inkişaf etmir.



**Qız** - Diqqəti bütünlüklə praktiki işlərin həllinə yönəltmək çətin olsa da, bunu edin. Fikrinizi dağıtmayın, başladığınız işləri yarımçıq qoymayın, kiçik və ağrılı səhvlərə yol verməyin.



**Tərəzi** - Ünsiyyət, qeyri-formal şəraitdə işgüzar məsələlərin həlli üçün əlverişli zamandır. Çıxış etmək, tədbirə qatılmaq olar. Diqqət mərkəzində olacaqsınız. Çoxdan bəri yarımçıq qalmış işi tamamlayın.



**Əqrəb** - Sadə məsələlərlə yanaşı, mürəkkəb problemlərin həlli üçün münasib gündür. Gəlir, sərfəli anlaşma və uğurlu alış-veriş istisna deyil. İstənilən görüş pis keçməyəcək. Dostlarla yanaşı, müttəfiq tapmaq olar.



**Oxatan** - Gün ərzində yaranacaq problemlərin öhdəsindən müstəqil şəkildə gəlin. Yardım üçün kimsəyə müraciət etməyin. Müstəqil, təkbaşına fəaliyyət daha çox vaxt tələb edə bilər. Planlarda dəyişiklik edin.



**Oğlaq** - Yaxınlarınızla yanaşı, yaxşı tanımadığınız şəxslər də sizə yardım üçün müraciət edirlər. İstəklərin yerinə yetirilməsi çətin olsa da, sərt cavab verməyin. Qəfil gəlişlər xoş ola bilər.



**Dolça** - Ünsiyyət üçün uğursuz gündür. Yaxınlarınızla dil tapmaq üçün göstərdiyiniz bütün səylərə rəğmən qarşılıqlı anlaşma gərəkli səviyyədə deyil. Fikir və mövqelərinizi maksimum dərəcədə həssas, səbirli formada bildirin.



**Balıqlar** - Əhvalınız tez-tez dəyişəcək. Xırda işə sevinməyinizin və ya heç bir səbəb olmadan qəmlənməyinizin niyə baş verdiyini özünüz də anlamırsınız. Ən sadə işlərə diqqəti yönəltmək asan deyil.

*Qoroskop Rusiya və Qərb astroloqlarının proqnozları əsasında hazırlanıb*

## Sakit okeanın artan turşu səviyyəsi xərçənglərin qabığını əridir

**Okean və Atmosfer Milli Assosiasiyası (NOAA) tərəfindən aparılan bir araşdırma Sakit okeandakı turşu səviyyəsinin sürətlə artdığını göstərir.**

Turşu səviyyəsinin artması yengəc qabıqlarının əriməsinə səbəb olur. Dünya okeanları atmosferə atılan $CO_2$-nin təxminən 30%-ni sorur. Atmosferdəki $CO_2$ səviyyəsinin artması sulardakı turşu səviyyəsinin artmasına səbəb olur və bu vəziyyət canlıların həyatına mənfi təsir edir. Son dövrdə aparılan yeni bir araşdırma okean turşulaşmasının Sakit okeandakı Dangenes yengəclərinin qabıqlarını əritdiyini göstərdi. Nəticələr sürpriz deyil, ancaq araşdırmaçılar yengəclərdəki ziyanın gözləniləndən erkən reallaşdığını və turşu səviyyəsindəki artımın yengəclərə bu qədər sürətli zərər verəcəyini təxmin edə bilmədiklərini ifadə etdi. Dəniz canlılarına gələn zərər yalnız Sakit okean ekosisteminə təsir etməyəcək, eyni zamanda, Sakit okeanın şimal-qərb hissəsində şəhərlərin iqtisadiyyatları da bundan təsirlənə bilər.

*Hazırladı: Ramil QULİYEV*

Baş redaktor: *Aydın Quliyev*

Baş redaktorun müavini: *Tahir Tağıyev*

Redaksiyanın ünvanı: *Bakı şəhəri, Mətbuat pr. 529-cu məhəllə, 6-cı mərtəbə*

Tel-faks: *510-87-40; 510-87-38; 510-87-39*

*e-mail: azer22@mail.ru*

**Reyestr № 0106-P219-45846**

Qəzet həftədə 5 dəfə çıxır. (Bazar və bazar ertəsindən başqa). «BZ»-də çap olunur.

*Sifariş: №2514* *Tiraj: 3050*

Qəzetdə «Olaylar» və «Trend» informasiya agentliklərinin materiallarından istifadə edilir.

Reklam mətninə görə qəzet məsuliyyət daşımır.